Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

21 MAY 2019-cu il

№ 90 (3988)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# «MÜHARİBƏ BAŞLASA, PUTİN MƏSULİYYƏT DAŞIYIR» - PAŞİNYAN 10 AYDAN SONRA MƏLUM BƏYANATI TƏZƏLƏDİ, NİYƏ...

■ səh. 5 ■

Ermənistan ABŞ-dan adambaşına yardım alan ikinci ölkə statusunu itirib...

■ səh. 6 ■

Xaricdəki radikal mühacirlər qrupunda yumşalmalar və AXCP sədrini narahat edən məqamlar...

■ səh. 4 ■

Tiflisin Ankara ilə münasibətləri korlanır... Prezidentin Estoniya bəyanatlarından çıxan nəticələr...

■ səh. 8 ■

Köçəryan məsələsində "Qarabağ klanı" Paşinyana rüsvayçı məğlubiyyət yaşatdı...

■ səh. 7 ■

Paşinyanın uğursuz ikinci inqilabının hədəfləri əsasən kimlər olacaq...

■ səh. 5 ■

Şöhrətli peşəkarlar İncəsənət Universitetində qabiliyyət imtahanları götürənlərdən möhkəm narazılıq etdilər...

■ səh. 11 ■

İsrail "Avroviziya"sının nəticələri Azərbaycanla bağlı hansı yanaşmaları ortaya qoydu...

■ səh. 13 ■



■ səh. 9 ■

## «Ocaq başında kartoflu kabab yeyənlərin» Ermənistanda çevriliş hazırlıqları - Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq üzərində «Qarabağ klanı»na tələ...



Xocalıdakı 90 nəfərlik uşaq bağçasına Türkiyədən gizli maliyyə yardımı edənlər...

■ səh. 3 ■



Əli Kərimlinin yanında Elçibəy funksionerlərindən bircə nəfər də qalmayıb - əsl elçibəyçiləri didərgin salan 4 əsas səbəb...

■ səh. 7 ■

Yarımçıq 400 bina mayın sonuna sənədləşdirilməli idi, cəmi 26 bina - Prezident fərmanı niyə zəif icra olunur...

■ səh. 10 ■

■ səh. 3 ■

Son "Avroviziya" müsabiqəsinə də erməni barmağı girdi - "Qarabağla bərabər Naxçıvanı da əlimizdən almaq istədilər"...



■ səh. 4 ■

İllər boyu Əli Kərimlinin oyunlarına alət ol, axırda da təhqiramiz "islah olunmuş mühacirlər" ayaması qazan...



■ səh. 10 ■

Bakı və Bakı ətrafında 70 minə yaxın ev üçün əmlak amnistiyası...



■ səh. 14 ■

230 minə də avtomobil nömrəsi olar?!



■ səh. 11 ■

"Kitayski" osetrin balıqlar - Bakı restoranlarında yediyimiz bu imiş...





## Prezident İlham Əliyev Kürdəmirdə "ASAN xidmət" mərkəzinin tikintisinin başa çatdırılmasına 20 milyon manat ayırdı

**Prezident İlham Əliyev Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılır. Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Mətbuat Şurası "Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində" mövzusunda Dəyirmi masa keçirəcək

**Mayın 21-i saat 12.00-da Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə "Azərbaycana baxış: siyasi maraqlar media müstəvisində" mövzusunda Dəyirmi masa keçiriləcək.**

Toplantıda MŞ İdarə Heyətinin üzvləri, kütləvi informasiya vasitələrinin rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak edəcək.

Bütün KİV təmsilçiləri dəvətlidir!

# 10 min Azərbaycan əsgərinin təlimi başladı

**Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri başlayıb.**

Müdafiə Nazirliyindən baki-xeber.com-a verilən məlumata görə, Müdafiə naziri Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.

Düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.



Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

**Genişmiqyaslı əməliyyat-taktiki təlimləri mayın 24-dək davam edəcək.**

# Tacikistanda İŞİD-in həbsxanada qaldırdığı qiyamda 32 nəfər öldü

**Tacikistanın Vahdat şəhərində yerləşən həbsxanada İŞİD üzvlüyünə görə cəza çəkən bir neçə məhbus qiyam başladıb.**

"Trend"in məlumatına görə, bu barədə Tacikistanın Ədliyyə Nazirliyindən bildiriblər.

Nazirliyin məlumatında deyilir: "Ötən gün (bazar günü) təxminən saat 20:30-da başlayan iğtişaşlar zamanı İŞİD-ə üzvlüyə görə cəza çəkən təxminən 30 nəfər bıçaq və digər iti silahlarla 3 nəzarətçini girov götürüb, daha sonra qətlə yetirib".

Bildirilir ki, qiyam başladanlar arasında da ölənlər var: "Danışıqlar zamanı cinayətkarlar arasında da toqquşmalar baş verib. Həbsxana əməkdaşlarının qaydalara riayət etmək çağırışlarına məhəl qoymayan cinayətkarlar onlara hücum edib və daha bir neçə nəzarətçini yaralayıb. Həbsxananın administrasiyası tərəfindən vəziyyətin nəzarətə alınması üçün qəti tədbirlər görülüb və bu zaman



təhlükəli cinayətkarlar arasında da ölənlər olub".

Nazirlik həbsxanada vəziyyətin stabildir və nəzarət altında olduğunu, istintaq orqanlarının insidentlə bağlı araşdırmaları davam etdirdiyini bildirib. Tacikistanın ədliyyə nazirinin müavini, Cəzaların icrası üzrə Baş İdarənin rəhbəri Mansurcon Umarov "RİA Novosti"yə bildirib ki, qiyam zamanı 29 məhbus və 3 nəzarətçi həlak olub.

Onun sözlərinə görə, məhbuslardan 8-i toqquşmalar zamanı digər məhbuslar tərəfindən qətlə yetirilib.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu - Abunə!

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Azərbaycanda yaşlı valideynlərin övladlarından maliyyə asılılığını azaltmaq yolları...

**Azərbaycanda yaşlı valideynlərin uşaqlarından maliyyə asılılığını azaltmaq məqsədilə onlar üçün sosial müdafiə proqramlarının gücləndirilməsi təklif edilir.**

"Trend"in məlumatına görə, bu təklif Azərbaycan Hökuməti və BMT-nin Əhali Fondunun əməkdaşlığı ilə hazırlanan, doğulanlar arasında cins nisbətinin pozulmasının aradan qaldırılmasına dair Milli Fəaliyyət Planının layihəsində yer alıb.

Təklif ölkəmizdə doğum zamanı cins nisbətinə səbəb olan amillərin aradan qaldırılmasına yönəldilib.

Aparılan tədqiqatların nəticələrinə görə, Azərbaycanda oğlan və qızların nisbəti 1990-cı illərin əvvəllərinədək bioloji normaya uyğun olsa da, bu nisbət 1991-ci ildə SSRİ dağıldıqdan sonra kəskin şəkildə pozulmağa başlayıb. Buna səbəb 1991-ci ildə SSRİ-nin süqutundan sonra yaranmış iqtisadi və digər çətinliklər nəticəsində insanların ailənin gələcək dəstəyini təmin etmək məqsədilə oğlan uşaqlarına üstünlük verməsi və bu prinsiplərə əsaslanan ailə modelinin geniş yayılması olub.

Milli Fəaliyyət Planının layihəsində qeyd edilir ki, yaşlı valideynlərin övladlarından maliyyə asılılığının azaldılması məqsədilə onların iqtisadi vəziyyətinin yaxşılaşdırılması vacibdir. Azərbaycanda isə bu cür asılılıq dedikdə daha çox oğul övladından asılılıq nəzərdə tutulur.

Hesab edilir ki, göstərilən səylər daha çox ən yoxsul ailələrə yönəldilməlidir. Çünki maddi çətinlik ailələri iqtisadi dəstək üçün oğul övlada üstünlük verməyə vadar edə bilər.

Layihədə tövsiyə edilir ki, övladlarından maliyyə asılılığını azaltmaq məqsədilə yaşlı insanların münasib səhiyyə xidmətləri ilə təmini istiqamətində səylər göstərilməlidir.

Qeyd edək ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova doğulanlar arasında cins nisbətinin pozulmasının aradan qaldırılmasına dair Milli Fəaliyyət Planının bu il qəbul edilməsinin nəzərdə tutulduğunu deyib.

# Xocalıdakı 90 nəfərlik uşaq bağçasına Türkiyədən gizli maliyyə yardımı edənlər...

**"Hayastan" ümumerməni fondunun Azərbaycanın işğal olunmuş Xocalı rayonunun Şuşakənd kəndində yeni uşaq bağçası tikib istifadəyə verməsi haqda xəbər təsdiqini tapıb. Məlum olub ki, 90 uşağın təhsil alacağı uşaq bağçasının tikintisinə maliyyə dəstəyini Türkiyədə yaşayan erməni əsilli Davidcyan, Ekserdcyan və Qriqor Şəmşiroğlu verib. Bağça sentyabr ayından fəaliyyətə başlayacaq.**



Layihə haqqında məlumat verən türkiyəli iş adamı Qriqor Şəmşiroğlu bunları deyib: "Bu bizim Qarabağa 5-ci, ya da 6-cı səfərimizdir. Buna qədər Daşaltı kəndində uşaq bağçası və məktəb tikintisi həyata keçirmişik. Burada həyatın canlanması bizə güc verir. İndən belə də yeni layihələrin həyata keçməsinə dəstək olacağıq".

Hazırda Türkiyədə yaşayan ictimai fəal, mərhum Elçibəyin kürəkəni Aqil Səmədbəyli bununla bağlı Türkiyə Sənayeçilər və İş Adamları Birliyinin sədri Nihat Tanrıqulu ilə görüşüb və TUSİAD sədrinə məsələnin araşdırılması üçün müraciət edib.

Aqil Səmədbəyli görüşlə bağlı bildirib ki, Nihat Tanrıqulu məsələni araşdıracağını və adları hallanan erməni iş adamlarına xəbərdarlıq ediləcəyini bildirib. Bundan əlavə, Türkiyə qanunları çərçivəsində adları qeyd olunan iş adamlarının cəzalandırılması üçün müəyyən addımlar da atılacaq.

Türkiyədə yaşayan iş adamlarının bu tip hərəkətinə həmin ölkənin rəsmi dairələri hansı reaksiyanı verməlidirlər?

*Xəzər Teyyublu: "Türkiyənin rəsmi qurumları hərəkətə keçib bu təxribatı törədən iş adamlarını cəzalandırmalıdır"*

*Elşən Mustafayev: "Bu, siyasi təxribatdır"*

**Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu cür hərəkət yolverilməzdir:** "Türkiyə dövlət səviyyəsində bizim mövqeyimizi dəstəkləyir. Amma Türkiyə əsilli erməni iş adamlarının bu addımı heç də ürəkaçan deyil. Bu cür addımlar iki qardaş ölkənin cəmiyyətləri arasındakı münasibətlərə mənfi təsir edir. Özü də Xocalı kimi bir yerə Türkiyə sərmayəsinin qoyulması yolverilməzdir. Bəli, həmin sərmayə erməni yox, türk sərmayəsidir. Çünki ermənilər o pulu Türkiyədə qazanıblar. Bunun bir adı var, rəzalət. Təcili şəkildə Türkiyənin rəsmi qurumları hərəkətə keçib bu təxribatı törədən iş adamalarını cəzalandırmalıdır. Bəli, bu, düşünülmüş təxribatdır. Xocalı burda təsadüfən seçilməyib. Bunun dərindən aydınlaşdırılması isə qardaş ölkənin üzərinə düşür".

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev qəzetimizə bildirdi ki, yaşananlar çox acınacaqlı bir mənzərədir:** "Burada Türkiyənin prosesə müdaxiləsi mütləq lazımdır. Çünki söhbət hansısa iş adamının milli kimliyinə görə sıxışdırılmasından getmir ki, Türkiyəyə kimsə irad tuta bilsin. Bu, siyasi təxribatdır. Fikir verirsinizsə, ünvan kimi Xocalı seçilib. Bilirlər ki, bu, bütün Türk dünyasının həssas yeridir. Türkiyə həmin iş adamlarını mütləq cəzalandırmalıdır. Bu edilməsə, cəmiyyətlərimiz arasındakı etimad mühiti zədələnə bilər".

*Məhəmmədəli QƏRİBLİ*

# Son "Avroviziya" müsabiqəsinə də erməni barmağı girdi - "Qarabağla bərabər Naxçıvanı da əlimizdən almaq istədilər"...

**Bütün dünya tamaşaçılarının böyük maraqla izlədiyi "Avroviziya-2019" mahnı müsabiqəsi artıq başa çatıb. İsrailin paytaxtı Təl-Əviv şəhərində keçirilən müsabiqədə diqqətçəkən məqamlar izlənib. Müsabiqənin finalında 20-ci nömrə altında çıxış edən təmsilçimiz Çingiz Mustafayevin ifası zamanı Azərbaycanın xəritəsi təqdim edilsə də, bu xəritədə Qarabağ və Naxçıvan göstərilməyib.**



*"Ermənilər bütün vasitələrdən istifadə edərək Azərbaycana qarşı təxribatlar törədirlər, bu dəfə də əməllərindən qalmadılar"*

*Vaqif Abışov: "Çingiz Mustafayev ifa edərkən Azərbaycan xəritəsinin təhrif edilmiş formada, Qarabağsız və Naxçıvansız təqdim edilməsində birmənalı olaraq ermənilərin əli var"*

Tarixi Azərbaycan torpaqlarının xəritəyə salınmamasına İctimai Televiziyadan etiraz bildirilib. Lakin buna baxmayaraq, xəritədə heç bir düzəliş edilməyib.

Azərbaycan xəritəsinin belə bir mötəbər yarışda təhrif edilməsi həm siyasi, həm də mədəni baxımdan qəbuledilən deyil. Azərbaycan xəritəsinin Naxçıvansız və Qarabağsız təqdim edilməsi məsələsi geniş müzakirə edilir. Ərazi bütövlüyümüzə qarşı bu təxribat erməni təsiri ilə bağlı ola bilərmi?

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, prosesin baş verməsi təsadüfi deyil.** V.Abışovun sözlərinə görə, dəfələrlə Azərbaycana qarşı müxtəlif təxribatlar baş verib. Müsahibimiz onu da bildirdi ki, hətta "Avrovizya" müsabiqəsində əvvəllər də ermənilər tərəfindən Azərbaycana qarşı təxribatçı hərəkətlərə yol verilib. Buna misal olaraq o, keçmiş müsabiqələrdən birində Ermənistan təmsilçisinin qondarma Dağlıq Qarabağ rejiminin "bayrağı" ilə çıxış etməsini, burada Azərbaycan musiqisinin elementlərindən istifadə etməsini və s. göstərən ekspert qeyd etdi ki, "Avroviziya-2019"da Azərbaycan təmsilçisinin çıxışı zamanı xəritəmizin təhrif edilməsi də növbəti erməni təxribatı sayıla bilər. "Bu gün Azərbaycanın bütün istiqamətlərdə inkişaf etməsi, eləcə də bir sıra beynəlxalq uğura imza atması bəzi xarici dövlətləri, o cümlədən də Ermənistanı ciddi narahat edir. Ermənilər bütün vasitələrdən istifadə edərək Azərbaycana qarşı təxribatlar törədirlər, bu dəfə də əməllərindən qalmadılar. Fikrimcə, Azərbaycan təmsilçisi Çingiz Mustafayev ifa edərkən Azərbaycan xəritəsinin təhrif edilmiş formada, Qarabağsız və Naxçıvansız təqdim edilməsində birmənalı olaraq ermənilərin əli var. Çünki onlar uzun illərdir Qarabağla yanaşı, Naxçıvana qarşı da müxtəlif iddialar irəli sürürlər. Ermənilərin əli ilə xaricdə çap olunan xəritələrdə Naxçıvan və Qarabağ göstərilmir, bu ərazilər əsassız olaraq erməni torpağı (?) kimi təqdim edilir. Erməni diasporunun fəaliyyəti, eləcə də Avropanın, Amerikanın ermənipərəst qüvvələrinin təsiri ilə Azərbaycana qarşı bir sıra çirkin işlər həyata keçirilir. Ermənistan heç vaxt Azərbaycan təmsilçisinin uğurla çıxış etməsini istəmir. Bu müsabiqədə Azərbaycan təmsilçisi Çingiz Mustafayev müsabiqənin əsas favoritlərindən biri oldu. O həm təqdim etdiyi mahnı, həm də göstərdiyi performansla diqqət mərkəzində idi. Bu da, sözüsüz ki, erməniləri ciddi narahat edirdi. Düşünürəm ki, Azərbaycan xəritəsi ilə bağlı təxribat ciddi araşdırılmalıdır. Çünki bu olduqca mənfi bir haldır".

İsrailin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını qeyd edən V.Abışovun sözlərinə görə, Azərbaycan xəritəsinin o cür təqdim edilməsi müsabiqənin təşkilatçısı olan qurumun günahıdır. O hesab edir ki, ermənilər hər yerdə özlərinə əlaqə yaradır və belə ciddi yarışlardan öz çirkin niyyətlərini həyata keçirmək üçün geniş şəkildə istifadə edirlər.

*İradə SARIYEVA*

**Məlum olduğu kimi, son vaxtlar xaricdəki bəzi mühacir radikalların mövqeyi yavaş-yavaş dəyişir və Azərbaycandakı hakimiyyətə münasibətdə daha təmkinli davranışlara keçirlər. Son vaxtlar bu tendensiya xaricdə fəaliyyət göstərən bəzi radikalların timsalında daha qabarıq formada özünü büruza verir.**

# Xaricdəki radikal mühacirlər qrupunda yumşalmalar və AXCP sədrini narahat edən məqamlar...



*"Bu səbəbdən həmin qüvvələr sosial şəbəkələrdə xüsusi fəallıq göstərirlər"*

## ***Ramil Hüseynov:*** *"Qorxurlar ki, qaralama kampaniyasını dayandırsalar, o zaman xaricdəki olan-qalan tərəfdarlarını da itirəcəklər"*

Çox gec olsa da, mövcud reallıqları dərk edirlər ki, Azərbaycanla təzyiq, pressinq dili ilə danışmaq mümkün deyil. İllərdən bəri Azərbaycana və habelə, hakimiyyətə qarşı çox sərt, hətta düşmənçilik mövqeyi tutmağın düzgün olmadığını, bunun heç bir perspektivə xidmət etmədiyini dərk edirlər. Ən başlıcası, Azərbaycanda həyata keçirilən islahatları, görülən işləri anlamağa başlayıblar.

Ancaq bütün bunların fonunda, Azərbaycandakı radikal düşərgə, xüsusən də Əli Kərimlinin dəstəsinin sosial şəbəkə çıxışlarından belə görünür ki, onlar bütün bunlardan bərk narahatdırlar. Sanki xaricdəki radikal dəstənin taktika dəyişməsində maraqlı deyillər. Hər vasitə ilə bana qarşı çıxmağa, sözügedən prosesə mane olmağa çalışırlar. Bütün vasitələrlə çalışırlar ki, bu yöndə bəzi radikalların taktika dəyişməsinə kölgə salsınlar.

Maraqlıdır, bunun səbəbi nə ilə bağlıdır? Ola bilərmi ki, Ə.Kərimli ölkədə tərəfdarlarının yox olma həddinə qədər azalması şəraitində xaricdəki tərəfdarlarını tam itirməkdən qorxur? Həm də ola bilərmi qorxur ki, siyasi mühacir və təqib kimi uydurma mülahizələrlə ittihamçı siyasət aparmaq şanslarını itirsin?

**Məsələyə münasibət bildirən Vətəndaş və İnkişaf Partiyasının sədr müavini Ramil Hüseynovun sözlərinə görə, Ə.Kərimli tərəfdarlarının bundan narahat olmasının arxasında bir sıra məqsədlər dayana bilər:** "Bu kifayət qədər düşündürücü və əhatəli məsələdir. Görünən odur ki, bütün bunlar təsadüfi deyil. Məsələ ondadır ki, Azərbaycandakı bəzi radikal mövqedən çıxış edən partiyalar, onların rəhbərləri xalqın bir-birinə qarşı düşmən mövqedən çıxış etməsini istəyirlər. Hər vasitə ilə maraqlıdırlar ki, münasibətlər radikal məcrada inkişaf etsin. Hansısa yumşalma, pozitiv yönümlü meyllər olmasın. Bu qüvvələr hər vasitə ilə çalışırlar ki, iqtidar-müxalifət münasibətləri gərgin olsun, tərəflər arasında dialoq müstəvisində yaxınlaşma olmasın. Hesab edirəm ki, bu səbəbdən həmin qüvvələr sosial şəbəkələrdə xüsusi fəallıq göstərirlər. Bunun digər səbəbi də var. Bu ondan ibarətdir ki, həmin qüvvələrin xarici dairələr qarşısında götürdükləri öhdəliklər var. Bu minvalla istəyirlər ki, həmin öhdəlikləri yerinə yetirsinlər. Yerinə yetirməsələr, görünür, bunun qarşılığında nəsə əldə edə bilməzlər. Həmçinin, qorxurlar ki, qaralama kampaniyasını dayandırsalar, o zaman xaricdəki olan-qalan tərəfdarlarını itirəcəklər. Daxildə sosial dayaqları, zatən, yox səviyyəsindədir. Düzdür, Ə.Kərimlinin xaricdə elə də çox tərəfdarı yoxdur, amma müəyyən tərəfdarları var. Görünür, bu gedişlə onları da itirməkdən çəkinirlər. Bu üzdən, hər vasitə ilə çalışırlar ki, iqtidar-müxalifət münasibətlərində pozitiv meylləri boğsunlar. Mən partiya funksioneri olaraq siyasi münasibətlərin bu cür formalaşmasının əleyhinəyəm. Hansısa radikal mövqedən çıxış edən mühacirlər iqtidara qarşı yumşalıbsa, onları topa tutmaq doğru deyil. Cəmiyyətdə, iqtidar-müxalifət münasibətlərində bir-birinə qarşı inam olmalıdır. Səmimi inam şəraitində siyasət aparılmalıdır. Bu da ancaq və ancaq dövlətçiliyin xeyrinədir. Yaxşı olardı ki, radikal müxalif mövqedən çıxış edənlər dövlətçiliyə zərər vurmasınlar".

***Vidadi ORDAHALLI***

---

**Son vaxtlar Avropada maraqlı proseslərin baş verdiyinin şahidi oluruq. Azərbaycan hakimiyyətinə qarşı çox radikal mövqeyi ilə tanınan və xaricdə mühacir kimi yaşayan şəxslərin İlham Əliyevə açıq dəstək ifadə etdiyini görürük. Bu günlərdə "Meydan TV" kimi radikal bir layihənin qurucusu Emin Milli sosial şəbəkələr vasitəsilə İlham Əliyevdən açıq üzr istədi.**

# İllər boyu Əli Kərimlinin oyunlarına alət ol, axırda da təhqiramiz "islah olunmuş mühacirlər" ayaması qazan...



*"Bunun da başında Əli Kərimli durur"*

## ***Samir Adıgözəlli:*** *"Eminin ən böyük xidmətləri müxalifətə olub, amma görürsünüz ki, bugünkü mövqeyinə görə onu təhqir edirlər"*

Bunu da belə əsaslandırdı ki, indiyə qədər qərəzli, kinli olub. Buna bənzər mövqeyi digər mühacir jurnalist Elnur Məcidli də sərgilədi.

Hiss olunur ki, artıq Avropa ölkələrinə sığınan mühacirlər bəzi oyunlardan tam xəbərdar olublar. Buna görə də nicatı öz dövlətlərində axtarmağa başlayıblar. Qeyd edək ki, mühacirlərin bu cür hərəkətlərini alqışlayanlarla yanaşı, onlara istehza ilə yanaşan, hətta söyənlər də var. Ən maraqlısı isə budur ki, mühacirlərə ironik yanaşanlardan biri də AXCP sədri Əli Kərimli olub. O, ironik tərzdə onları aşağılayıb və adlarını "islah olunmuş mühacirlər" kimi hallandırıb. Məhz bu cür yanaşmadan sonra konstruktivlik ortaya qoyan mühacirlərə qarşı virtual məkanda AXCP-nin troll dəstələri tərəfindən hücumlar təşkil edilib.

Gəlin, Emin Millinin yazdığı fikirlərə diqqət edək: "Bu günlərdə mənə yüzlərlə insan zəng etdi, publik yazdı, şəxsi mesaj göndərdi, mənim yeni mövqeyimi və strategiyamı dəstəklədi. Bu insanlar mənə şəxsən kosmik bir enerji verdilər, çətin bir məqamda yenidən etibar etdilər.

Bu insanların arasında çoxdan tanıdığım insanlar oldu, amma daha çox tanımadığım insanlar var. Sadəcə, müzakirələri izləyib mənə dəstək verən insanlar. Onlar həm dünyada ən uğurlu, həm də Azərbaycanda çox uğurlu, amma mən dediyim ilk növbədə iqtisadi islahatları görmək istəyən və vətənini sevənlərdir. Onlar həm də ən sadə azərbaycanlılardır.

Hamınıza təşəkkürümü bildirirəm! Nə qədər çətin olsa da, Azərbaycanın dünyada ən müasir, ən inkişaf etmiş bir ölkə olmağı üçün canımdan da, eqomdan da, "hörmətimdən də" (respecyability) keçməyə hazıram və bunu ömür boyu sübut etmişəm və bundan sonra da edəcəm".

Əli Kərimli yumşalan mühacirlərə qarşı niyə belə radikal mövqe sərgiləyir və məqsədi nədən ibarətdir?

**Beynəlxalq Diaspor Mərkəznin (BDM) aparat rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə bildirdi ki, məqsəd həmin adamların AXCP-nin siyasi orbitindən uzaqlaşmasıdır:** "Son günlər gedən prosesləri biz də yaxından izləyirik. Burada Ə.Kərimlinin əsas hədəf aldığı şəxs Emin Millidir. Çünki son vaxtlar ən prinsipial mövqeni o ortaya qoyur. E.Millinin əlində təsir imkanı olan bir KİV olub. Hazırda Emin onun rəhbərliyindən uzaqlaşdığını bəyan etsə də, təsir imkanları qalmamış deyil. Ə.Kərimlini bu cür adamın hakimiyyətə olan mövqeyini dəyişməsi qane etmir. Hətta E.Milli ondan da üzr istəyəndə bunu qəbul etmədilər. Emini lağa qoydular ki, İlham Əliyevdən istədiyi üzrə haqq qazandırmaq üçün Ə.Kərimlinin də adını ora yazıblar. Emin və digər mühacirlərin öz dövlətinə qarşı yumşalan mövqeyini normal qarşılayıram. Hesab edirəm ki, bu amil Azərbaycanın xaricdəki mövqeyini də möhkəmləndəcək, diasporumuzun inkişafına müsbət təsir göstərəcək. Ə.Kərimlinin prinsipi bolşeviksayağıdır. Kim bizimlə deyilsə, deməli, düşməndir. Ona görə də uzun illərdir yerində sayır. Biz demirik ki, E.Milli və digərləri tənqidi jurnalistika ilə məşğul olmasınlar. Amma öz ölkəsinə qarşı qərəzlilik olmamalıdır. Belə halların olduğunu isə Eminin özü açıq etiraf etdi və bundan peşmançılığını söylədi. Eminin ən böyük xidmətləri müxalifətə olub, amma görürsünüz ki, bugünkü mövqeyinə görə onu təhqir edirlər. Bunun da başında Ə.Kərimli durur. Siyasət, diaspor işində insanları alət kimi istifadə etmək olmaz. Hesab edirəm ki, mühacirlərimiz düz yoldadır. Onların bu cür prinsipiallığı başqaları üçün də gözəl nümunə olacaq və biz tezliklə xaricdəki soydaşlarımızın ümumi Azərbaycan maraqlarından çıxış etdiyinin şahidi olacağıq".

***Məhəmmədəli QƏRİBLİ***

# "Müharibə başlasa, Putin məsuliyyət daşıyır" - Paşinyan 10 aydan sonra məlum bəyanatı təzələdi, niyə...

**Erməni mətbuatının yaydığı məlumata görə, Baş nazir Nikol Paşinyan Rusiya mətbuat nümayəndələri ilə görüşüb. O, görüş zamanı bildirib ki, müharibənin yenidən başlamasının qarşısını almaq üçün Rusiya bütün zəruru rıçaqlara malikdir. Bununla, bir növ, Paşinyan ötən ilin avqustunda səsləndirdiyi fikirləri təkrarlayıb.**

*"O yaxşı bilir ki, Rusiyanın yardımı olmasa, Ermənistan Azərbaycan qarşısında duruş gətirə bilməyəcək"*

Qeyd edək ki, ötən ilin avqustunda Paşinyan Robert Köçəryanın həbsinə Rusiya xarici işlər naziri Sergey Lavrovun göstərdiyi münasibətə dair preventiv bəyanatla çıxış etmişdi. Bəyanatda Rusiyanın hərbi-siyasi məsuliyyəti haqqında fikirlər öz əksini tapmışdı. O zaman Lavrov demişdi ki, Moskva Ermənistanın hazırkı rəhbərliyinin əvvəlki hakimiyyətə yönəlmiş addımlarından çaşqındır.

Paşinyan iddia edib ki, guya yeni müharibə regionda Moskva və Tehranın maraqlarına zərbə vura bilər. Eyni zamanda, bu, regionda domino effekti yaradacaq. Erməni Baş nazir iddia edir ki, Ermənistanın hadisələrin bu məcrada inkişafına ehtiyat variantı var. Ancaq Moskva, Tehran və Bakının belə bir variantı yoxdur.

Görünən odur ki, Paşinyan açıq-aşkar müharibə ilə bağlı məsuliyyəti Rusiyanın üzərinə qoymaq istəyir. Özü də bunu məhz Çindən səfərdən qayıdandan sonra bəyan etdi.

Bütün hallarda, Paşinyan ötən ilin avqustundan sonra niyə təkrar olaraq deyir ki, müharibə olsa, Rusiya da məsuliyyət daşıyır? Həm də niyə bunu məhz Çin səfərindən sonra deyir?

**Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, Paşinyanın bu cür fikirlə çıxış etməsində müəyyən məqsədləri var:** "Paşinyan istəyir ki, bu məsələdə əsas məsuliyyəti Rusiyanın üzərinə qoysun. Çünki o yaxşı bilir ki, sözügedən məsələlərdə Rusiyanın rolu böyükdür. Paşinyan hakimiyyətə gələndə müxtəlif ziddiyyətli bəyanatlar verdi. Görünür,

***Fikrət Sadıqov:*** *"Paşinyan istəyir ki, bu məsələdə əsas məsuliyyəti Rusiyanın üzərinə qoysun"*




başa düşüb ki, Dağlıq Qarabağ probleminin həlli Rusiyanın əlindədir. Rusiyasız bu məsələ həll olunmayacaq. Bu səbəbdən istəyir ki, müharibə ilə bağlı məsuliyyət Rusiyanın üzərində qalsın. Nəzərə almaq lazımdır ki, Qarabağdakı separatçılar Paşinyanla hesablaşmırlar. Görünür, bununla bağlı topu Moskvaya atır. Digər bir reallıq odur ki, Rusiya hər zaman Ermənistanı müdafiə edib və bu ölkənin arxasında dayanıb. Ermənistan Rusiyanın forpostudur. Ermənistanda hakimiyyət dəyişsə də, bu yöndə fundamental olaraq nəsə dəyişməyib. Ona görə də Paşinyan bunu deməklə istəyir ki, Dağlıq Qarabağla bağlı məsuliyyəti Rusiyanın üzərinə qoysun. O yaxşı bilir ki, Rusiyanın yardımı olmasa, Ermənistan Azərbaycan qarşısında duruş gətirə bilməyəcək. Bu, indi də belədir, bundan əvvəlki illərdə də belə olub. Paşinyanın məhz Çin səfərindən sonra belə deməsi hesab edirəm ki, elə bir əhəmiyyət kəsb etmir. Çünki erməni mətbuatının şişirtməsinə rəğmən, Ermənistan Çin üçün elə bir xüsusi əhəmiyyət kəsb etmir".

***Vidadi ORDAHALLI***

# Paşinyanın uğursuz ikinci inqilabının hədəfləri əsasən kimlər olacaq...

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkədə inqilabın ikinci və əsas mərhələsinin anonsunu verib. Bu barədə o, mayın 19-da öz "Facebook" səhifəsində yazıb: "Sabah saat 12:00-da mən Ermənistanda inqilabın ikinci, ən əsas mərhələsini elan edəcəm. Ümumxalq dəstəyini gözləyirəm".**



*"Onu ən çox narahat edən məsələ Köçəryanın timsalında ona qarşı güclü müxalifətin formalaşa bilməsi təhlükəsidir"*

Daha öncə Paşinyan sosial şəbəkə vasitəsilə həmvətənlərini ölkədəki bütün məhkəmələri blok etməyə çağırıb. Onun sözlərinə görə, "heç kəs məhkəmə binalarına daxil ola bilməməlidir".

Özü də maraqlıdır ki, o bu bəyanatı sabiq prezident Robert Köçəryanın mayın 18-də məhkəmə qərarı ilə azadlığa buraxılmasından dərhal sonra səsləndirib.

Paşinyanın məlum çağırışından sonra onun tərəfdarlarının İrəvanın məhkəmə binalarına girişi bağlaması zamanı insident baş verib. Məhkəmə binalarından birində etirazçıların qapıdan girişçıxışı bağladıqlarını görən hakim David Balayan içəri pəncərədən soxulmaq istəyib. Ancaq Paşinyanın adamları onu pəncərədən dartıb aşağı salıblar. Bu zaman hakim yıxılıb.

Göründüyü kimi, küçə dalğasında hakimiyyəti ələ keçirən Paşinyan sözügedən metodlarla ölkəni idarə etməyə çalışır. Bu yolla postunu qorumağa, rəqiblərini neytrallaşdırmağa çalışır. Bütün bu deyilənlərin fonunda, Paşinyanın bəyan etdiyi ikinci inqilabın hədəfləri əsasən kimlər olacaq?

***Arzuxan Əlizadə:*** *"Paşinyan üçün əsas hədəf "Qarabağ klanı" və onu təmsil edən qüvvələrdir"*

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadənin sözlərinə görə, Paşinyan üçün əsas hədəf "Qarabağ klanı" və onu təmsil edən qüvvələrdir:** "Paşinyan bir il əvvəl Ermənistanda hakimiyyəti "Qarabağ klanı"nda alsa da, hələ məqsədlərinə tam nail ola blmir. Məsələ ondadır ki, hakimiyyətin aşağı eşalonlarında bu klana xidmət edən kadrlar var. Paşinyanın komandası yetkin olmadığı üçün, onları əvəzləyə bilmir. Paşinyanı ən çox narahat edən isə sabiq prezident R.Köçəryanın timsalında ona qarşı güclü müxalifətin formalaşa bilməsi təhlükəsidir. Özü də Köçəryan əsas gücü Dağlıq Qarabağdakı separatçı qurumdan alır. Paşinyan Ermənistanda hakimiyyəti dəyişsə də, Dağlıq Qarabağdakı separatçı rejimi dəyişə bilməyib. Fikrimcə, Paşinyan separatçı qurumda hakimiyyəti dəyişməyə çalışacaq. Çünki bu baş vermədən Ermənistandakı inqilab natamam olacaq. Paşinyan anlayır ki, ona qarşı ən böyük təxribat Xankəndidəki separatçı rejimdən gələ bilər. Köçəryanın həbsdən azad olunması və yaxın perspektivdə Dağlıq Qarabağdakı separatçı quruma rəhbərlik edəcəyi ehtimalı Paşinyan üçün çox ağır nəticələr verə bilər. Ona görə də Paşinyan Qarabağdakı separatçı rejimi özü üçün təhlükə mənbəyi hesab edir. Hesab edirəm ki, bundan sonra çalışacaq Qarabağdakı separatçı qurumu dəyişsin, öz tərəfdarlarını ora yerləşdirsin. Ancaq bu o qədər də real görünmür. Çünki Dağlıq Qarabağdakı separatçılar daha çox Rusiya ilə hesablaşır, nəinki Ermənistanla. Rusiya da Qarabağdakı separatçılardan rıçaq kimi istifadə etməkdən çətin ki, əl çəksin. Bu baxımdan, Paşinyanın hədəfləri uğursuz görünür".

***Vidadi ORDAHALLI***

# Ermənistan ABŞ-dan adambaşına yardım alan ikinci ölkə statusunu itirib...

**Ermənistanla bağlı yaranan vəziyyətin təhlili göstərir ki, işğalçı ölkənin xarici siyasətində son bir il ərzində çox ciddi problemlər meydana çıxıb. Məlum olduğu kimi, Ermənistanda hakimiyyət dəyişikliyindən sonra ölkənin Rusiya ilə münasibətləri əhəmiyyətli dərəcədə korlanıb. Yaranmış durumda Qərbin, xüsusən də ABŞ-ın Ermənistanın yanında yer alacağına dair yeni hakimiyyət tərəfindən mif yaradılsa da, reallıq bunun tam əksini üzə çıxardı.**

Hazırda hadisələrin inkişaf axarı göstərir ki, Qərb, o cümlədən də ABŞ Ermənistandan üz döndərir. Erməni ekspert Suren Sarkisyan "tert.am"a açıqlamasında qeyd edir ki, Ermənistanda baş verənlər Ermənistan-ABŞ münasibətlərinə indi daha çox mənfi təsir göstərir. Onun sözlərinə görə, iki ölkənin münasibətlərində vəziyyət sürətlə pisləşir. Bütün bunlara əsas səbəb isə baş nazir Nikol Paşinyanın ABŞ-la bağlı siyasətdə xeyli sayda yanlışlıqlara yol verməsidir. Bununla bağlı "Qraparak" qəzeti yazır ki, Ermənistan-ABŞ münasibətlərində artan gərginlik İrəvana baha başa gələcək: "Ermənistanın xarici siyasəti, demək olar ki, Paşinyanın müxbirlik üstünlüyündən kənarda qalaraq yer tutmayıb. Ermənistan-ABŞ münasibətləri Paşinyanın xarici siyasətdən anlamaması səhifəsində qalıb. Bu məqam Ermənistanı yeni və köhnə problemlər qarşısında qoyur". Qeyd olunur ki, Ermənistanın bütün xarici siyasət cəbhəsində vəziyyət dəyişməz olaraq qalır, daha doğrusu, mövcud olan vəziyyət böhrana doğru istiqamətlənir: "Xüsusilə Ermənistan-ABŞ münasibətləri narahatedicidir. Ehtimal edilirdi ki, Ermənistan-ABŞ münasibətlərində Robert Köçəryan və Serj Sarkisyan hakimiyyəti dövründə olan mənfi hal yeni Ermənistan dövründə sürətli şəkildə dəyişəcək. Bu münasibətlərdə mövcud gərginlik, dərin etimadsızlıq dəf edilərək, yeni siyasət, yeni ikitərəfli və çoxtərəfli münasibətlər formalaşdırılmalı idi. Lakin xarici siyasət gündəmini dəyişməyən Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan-ABŞ münasibətlərinin yaxşılaşdırılması haqqında fikirləşməyərək, özündən əvvəlkilərin bədbin xarici siyasət xəttini davam etdirir. 2018-ci il noyabr ayında Ermənistanın xarici ölkələrdə səfirlərinin peşəkar göstəricilərini rəhbər tutaraq, Paşinyan Ermənistanın ABŞ-dakı səfiri vəzifəsinə uzun müddət Serj Sarkisyanın köməkçisi olmuş Varujan Mevsisyanı təyin edib. Bu cür kadrların təyinatının hansı qurum tərəfindən həyata keçirildiyini yalnız ehtimal etmək olar. Xarici siyasət gündəmini dəyişməyən Moskvanın ehtimal olunan təhdidlərindən sürüşərək çıxmağa çalışan inqilabdan sonrakı Ermənistanın gənc hökuməti Ermənistanın Rusiyadan yalnız hərbi siyasi asılılığını dərinləşdirməklə kifayətlənməyib, Ermənistan-ABŞ münasibətlərini Moskvanın cazibəsinə qurban verib. O, hərbi və geosiyasi münaqişə içərisində olan Suriyaya hərbi tabor göndərməklə ABŞ-ın bölgədəki siyasətinə qarşı çıxıb. İnqilabdan sonrakı bütün proseslər Ermənistan-ABŞ münasibətlərində baş verənlərə bariz sübutdur.

Postsovet məkanı olan Ermənistanda Ermənistan-ABŞ münasibətlərinin inkişafı önündəki əsas maneələri aşağıdakılardan ibarət idi: 1. Ermənistan ictimaiyyətinin rusmeyllı mövqeyi. Rusiya Federasiyasının Ermənistanda hərbi siyasi mövcudluğu və İrəvanın qeyri-suveren xarici siyasəti, 2. Sistemdə mövcud korrupsiya və azad iqtisadiyyatın formalaşmasındakı maneələr, 3. Demokratik institutların dağıdılması. Azad seçkilər sisteminin tapdanması, Televiziya kanallarının tamamilə hakimiyyət tərəfindən nəzarətdə saxlanılması, 4. Korrupsiyalaşmış və asılı olan məhkəmə sistemi, 5. İranla Ermənistanın xüsusi münasibətləri, 6. ABŞ ianələri siyasətinin səhv istiqamətə ünvanlanması.



İnqilabın həyata keçirildiyi Ermənistanda hesab olunurdu ki, bu problemlərin həlli üçün siyasi dəyişikliklərin həyata keçirilməsinə görə inqilabçı potensial kifayətdir. Bunun nəticəsində Ermənistan-ABŞ münasibətlərindəki mövcud böhran da dəf edilə bilərdi. Lakin bu baş vermədi. Ermənistanın inqilabçı hakimiyyəti bunu əsaslı şəkildə istəmir. Bundan başqa, bu il aprelin 24-də "Nezavisimaya qazeta" nəşrinə verdiyi müsahibəsində Nikol Paşinyan xüsusi qürurla qeyd edib ki, Ermənistanın heç bir hakimiyyəti ABŞ-ı onu kimi tənqid etməyib. Ermənistanın suverenliyinin real təhdidlərini görməyən Paşinyan necə, nə ilə Birləşmiş Ştatların Ermənistanın suverenliyinə mane olduğunu izah etmir. Qeyd etmək lazımdır ki, ABŞ yalnız Ermənistana dəstək vermir. Beləliklə, 1991-2001-ci illər ərzində ABŞ Ermənistana 1,4 milyard dollar humanitar və texniki yardım göstərib. 2005-2014-cü illər ərzində isə 413 mln dollar yardım edib. Ermənistan ABŞ-ın adambaşına düşən yardımı səviyyəsinə görə dünyada ikinci yerdədir. İlk yerdə İsrail durur. ABŞ Qarabağdakı qondarma rejimə maliyyə yardımı edən yeganə ölkə olub. Hətta münasibətlərin pozulduğu bu şəraitdə 2019-cu il mayın 8-də ABŞ Ermənistana 7,5 milyon dollar həcmində əlavə yardım edib. Bu yardım infrastruktur, kənd təsərrüfatı və turizmin inkişafına yönəlib. 2018-ci il mayın 8-də Ermənistan parlamentinin xüsusi iclasında Ermənistanın baş naziri vəzifəsinə namizəd olan Nikol Paşinyan qeyd edirdi ki, ABŞ-la dostluq münasibətlərinin yeni təkana ehtiyacı var. O, ABŞ-la müxtəlif sahədə xüsusi praktik addımlar həyata keçirmək niyyətində olduqlarını bildirirdi. Bu deyilənlər inqilab lideri Paşinyanın yerinə yetirmədiyi çoxsaylı vədlər zəncirinin bir halqasıdır. Ermənistan XİN-in 2018-ci il üzrə illik hesabatında da diqqətçəkən məqamlar var. Belə ki, hesabatda vurğulanır ki, Ermənistan-ABŞ münasibətlərində mayın 28-də ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müavini Bricit Brinkin Ermənistana səfəri, iyunun 29-da Ermənistan prezidenti Armen Sarkisyanın ABŞ-a səfəri və dövlət katibi Mayk Pompeo ilə görüşməsi, oktyabrın 26-da ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Ermənistana səfər etdiyi qeyd olunur. Lakin bu səfərlərin nəticələri naməlumdur.

Ermənistanın xarici siyasəti, demək olar ki, Paşinyanın müxbirlik üstünlüyündən kənarda qalaraq yer tutmayıb. Ermənistan-ABŞ münasibətlərinin inkişafı yalnız yeni Ermənistanda Rusiyanın mövcudluğu amilini tarazlaşdırmaq, Qərb siyasəti və ABŞ siyasi sisteminin qarşılıqlı olması üçün vacib deyil, eyni zamanda xarici siyasi etibarlı tərəfdaşların əldə edilməsi baxımından önəmlidir. Lakin Paşinyanın ABŞ-ı qəhrəmancasına tənqid etməsini mühakimə edərək hesab etmək olar ki, Ermənistan-ABŞ münasibətlərində mövcud olan böhran qalmaqda davam edəcək. Ermənistan Rusiyanın göndərişlərində fırlanmağa davam edəcək. Ermənistan saatlarının əqrəbləri isə Moskva vaxtına uyğun zərbə endirəcək. Bununla da Ermənistanın "Qərb cəbhəsi"ndə yenə də hər şey dəyişməz olaraq qalacaq".

Bu yazılanlar bir daha göstərir ki, Ermənistanın ABŞ-la bağlı siyasəti iflasa uğrayıb. Elə bu da işğalçı ölkənin regionda mövqeyinin daha da zəifləməsi deməkdir.

***Tahir TAĞIYEV***

**Hazırda hakimiyyətə qarşı sərt radikal mövqedə dayanan Əli Kərimlinin rəhbərlik etdiyi partiyada, deməK olar ki, tanınmış siyasilərdən kimsə qalmayıb. 2005-ci ildəki parlament seçkilərindən sonra AXCP-də start götürən yarpaq tökümü prosesi elə həyata keçib ki, Elçibəy dövründə hərəkatdan partiyaya gəlmiş bir sıra tanınmış şəxslərin hamısı onu tərk edib.**

# Əli Kərimlinin yanında Elçibəy funksionerlərindən bircə nəfər də qalmayıb - əsl elçibəyçiləri didərgin salan 4 əsas səbəb...



## *Fərəc Quliyev: "Onlar Elçibəyin qoyduğu irsi qorumurlar, öz təşkilatlarının indiki və keçmiş üzvlərinə olan münasibət ortadadır"*

AXCP hazırda yalnız virtual aləm üzərindən fəaliyyət göstərən bir partiya təsiri bağışlayır. Siyasi prosesləri düzgün qavramayan bəzi gənclərin partiya sıralarına cəlbi prosesi baş verib. Onların da çoxundan virtual aləmdə partiyanın maraqları üçün amansızcasına istifadə edilir. Bəllidir ki, hakimiyyətə iddialı olan partiyanın siyasi vitrini çox cəlbedici olmalıdır. Yəni partiya yalnız sədrin kimliyi ilə kifayətlənməməlidir. Hazırda Ə.Kərimlinin ətrafında Elçibəy dövrünün heç bir funksionerinin olmaması bir sıra mülahizələrə və rəylərə yol açmış olur. Əli Kərimlinin tək qalması müxtəlif amillərlə izah edilir. Bildirilir ki, bunun başlıca səbəbləri onun şəxsi keyfiyyətləri ilə bağlıdır. Klassik funksionerlərin Ə.Kərimlini tərk etməsinin digər səbəbini isə onun yürütdüyü siyasi kursun ambisiozluğu, tərəfdarları və müttəfiqlərinə münasibətdə qeyri-səmimi olması ilə əlaqələndirənlər də az deyil. Partiyanın bu xüsusda düçar olduğu uğursuzluğun başqa bir səbəbini isə Ə.Kərimlinin müttəfiqləri ilə münasibətlərini ardıcıl davam etdirməməsidir. Elçibəy dövrünün funksionerlərini Ə.Kərimlidən uzaqlaşdıran bu səbəbləri əsaslı saymaq olarmı?

**Milli Azadlıq Hərəkatında Əbülfəz Elçibəyin yaxın silahdaşlarından olmuş, millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, sadalanan 4 faktor hələ azdır:** "Mən bunu daha detallı şəkildə izah etməyə çalışacağam. Əvvəla onu qeyd edim ki, mən AXC-də təmsil olunmuşam. Yəni hərəkat partiyalaşandan sonra orada təmsilçiliyim olmayıb. İkincisi, mən AXC hakimiyyəti dönəmində heç bir rəhbər postda təmsil olunmamışam. Azərbaycan Xalq Cəbhəsində "Yurd" və Müsavatın təşkilatı vardı. Mən icra komitəsinin sədri olanda Müsavat firqəsini binadan çıxarmışam. İzahını da verdim ki, bir partiyanın içərisində ikinci təşkilat ola bilməz. Belədirsə, onda anlamı Elçibəyi bəyənməməkdir. Hələ hərəkatın dövründə Elçibəyə tabe olmayan "Yurd" adlı fraksiya olub. Hərəkat partiyalaşmaya gedəndə həmin firqə daha da gücləndi. Cəmiyyətə onların fəaliyyəti məlumdur. Bu cür adamların Elçibəy mirasına sahib çıxması mümkün deyil. Onlar bunu iddia edə bilər, ancaq belə deyil. Elçibəyin yanında özünə sadiq olan komanda olub. Məsələn, bəzilərinin adını çəkim: Sabit Bağırov, Əli Məsimli, Nəcəf Nəcəfov və başqaları. Bu adamlara qarşı hər zaman cəmiyyətdə simpatiya olub. Təbii ki, belə adamların "Yurd"da təmsil olunması mümkün deyildi. Mən AXC-ni təsis edən 64 nəfərdən biriyəm. Ə.Kərimlinin adı həmin siyahıda yoxdur. Həmin təsisçilərdən bir nəfərdə olsun Ə.Kərimlinin ətrafında qalmayıb. Təbii ki, bunlar sual doğurur. Sizin dediyiniz parametrlərin bu məsələdə rolu danılmazdır. Amma hesab edirəm ki, başqa ciddi nüanslar da var".

Fərəc Quliyevin sözlərinə görə klassik hərəkatçıların Ə.Kərimli ilə eyni təşkilatda təmsil olunmamasının bir səbəbi də onların Elçibəy ideyalarına uyğun şəkildə fəaliyyət göstərməməsidir: "Bir dəfə də olsun siz o təşkilatda Bütöv Azərbaycandan danışıldığını görə bilməzsiniz. İran əleyhinə onların nə vaxtsa sərt bəyanat verdiyini görübsünüz? Dağlıq Qarabağın azad edilməsi məsələsində hərbi yol təklifini də onlar kənara qoyublar. Qorxurlar ki, xarici qaynaqlara xoş gəlməyə bilər. Mən hesab etmirəm ki, onlar Xalq Cəbhəsinin varisləridir. Ad oxşaya bilər, ancaq mahiyyət başqadır. Xahiş edirəm ki, xalq hərəkatı ilə AXCP-ni bir-birinə qarışdırmayın. Partiyaya çevriləndən sonra orada bəzi klassik hərəkatçılar oldusa belə, onlar da yürüdülən kursun doğru olmadığını, üzvlərə bəslənən münasibətin qeyri-sağlamlığını görüb oranı tərk etməli oldular". Millət vəkilinin sözlərinə görə, Ə.Kərimlinin təklənməsinin səbəbləri daha çoxdur: "Onlar Elçibəyin qoyduğu irsi qorumurlar, öz təşkilatlarının indiki və keçmiş üzvlərinə olan münasibət ortadadır. Onlar sanki partiyaya həbsxana kimi baxırlar. Elə bilirlər ki, ora girən çıxmamalıdır. Onlar partiyadan ayrılan adamlara xain kimi baxırlar, küçədə belə onları görəndə salamlaşmırlar. Tərəfdarları və müttəfiqləri həbsdə olanda qrant naminə onları alovlu müdafiə edirlər. Adamlar həbsdən çıxan kimi onlardan imtina edirlər. Son prosesdə biz bunun bir daha şahidi olduq. Münasibətlər sistemindən tutmuş, siyasi irsə bağlılıq və mənəvi dəyərlərə qoyulan hörmətin hamısında yanlışlıq olduğu üçün, bu aqibəti yaşayırlar".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Məlum olduğu kimi, Ermənistan məhkəməsi eks-prezident Robert Köçəryanı Dağlıq Qarabağın indiki və keçmiş qondarma "prezidentlərinin" müraciəti əsasında zaminə buraxıb. Bu prosedur əsasında Köçəryanın həbsdən çıxması Ermənistanda siyasi vəziyyəti gərginləşdirib. Erməni KİV-inin verdiyi məlumata görə, Köçəryanın həbsdən çıxmasını bayram edən tərəfdarları küçələrə çıxaraq yürüş ediblər.**

# Köçəryan məsələsində "Qarabağ klanı" Paşinyana rüsvayçı məğlubiyyət yaşatdı...



## *Hatəm Cabbarlı: "Nikol Paşinyanın prosesin qarşısını ala biləcək siyasi gücü yoxdur"*

Polis onları müşayiət edib, amma yürüşə müdaxilə olunmayıb.

Paşinyan isə öz tərəfdarlarını məhkəmə binalarının önünə toplaşıb qərara etiraz etməyə çağırıb.

Bundan sonra Köçəryanın əleyhdarları küçələrə çıxıblar və onun yenidən həbs olunmasını tələb ediblər. Onlar hədələyiblər ki, əgər Baş Prokurorluq qərardan protest verməsə və Köçəryan yenidən həbs olunmasa, ölkə boyu itaətsizlik aksiyalarına başlayacaqlar.

İrəvanın Azadlıq meydanına toplaşan minə yaxın aksiyaçı oradan Baş Prokurorluğun qarşısına yürüş edib və yenidən meydana geri dönüb. Prokurorluq isə məhkəmənin Köçəryanı zaminə buraxmaq qərarından protest verəcəyini açıqlayıb. Prokuror Petros Petrosyan deyib ki, ittiham tərəfi həbs-qətimkan tədbirində israrlıdır, çünki Köçəryan azadlıqda istintaqın gedişinə təsir edə bilər. Köçəryanın vəkili Ayk Alumyan isə deyib ki, onun zaminə buraxılması qərarından protest verilməsi qanuni deyil və eks-prezident bütün məhkəmə prosesi ərzində azadlıqda qalacaq. Lakin o, prokurorun hakimiyyətin təzyiqi ilə qərardan protest verəcəyini gözləyir və hesab edir ki, məhkəmə bu protesti təmin etməməlidir.

Ermənistanda baş verən bu proses "Qarabağ klanı"nın Paşinyan üzərində qazandığı qələbə kimi qəbul edilə bilərmi?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Bako Saakyanın və Arkadi Qukasyanın Robert Köçəryana zamin durması və onun girov pulu ödənilərək azadlığa buraxılması göstərir ki, Ermənistan ədliyyəsi Qarabağı özünün bir parçası kimi görüb, faktiki, qondarma rejimin "vətəndaşlarının" zaminliyini qəbul edir:** "Bu, son 30 ildə ikinci analoji insidentdir. Birincidə isə 1998-ci ildə Ermənistan DİN-i Köçəryana son on ildə Ermənistanda yaşadığı haqqında arayış verərək prezident seçkilərində iştirak etməsi qarşısında ən böyük maneəni qaldırmışdı.

Ermənistan yeni təlatümlə üzbəüzdür. Gələn il qondarma rejimdə "prezident seçkiləri" var. Köçəryan həbs edilməzsə, böyük bir ehtimalla namizəd olacaq. Köçəryana siyasi təzyiqlər artarsa, Bako Saakyanın vaxtından əvvəl istefa verib Köçəryanın namizəd olma prosesi sürətləndirilə bilər. Mətbuat yazır ki, onlarla adam İrəvan küçələrinə mitinqə çıxaraq Paşinyanı dəstəkləyir. Bu dəstək ötən ilin aprel və may aylarında olduğu kimi, ümumxalq hərəkatına çevrilə bilərmi, bu, ayrıca bir sualdır. Paşinyanın son birillik icraatlarından erməni xalqı məmnun deyil.

İlin sonuna qədər Ermənistan nehrə kimi çalxalanıb, yağı yağ, ayranı ayran olacaq". Hatəm Cabbarlının sözlərinə görə, bu birillik dönəmdə Nikol Paşinyan öz mövqelərini gücləndirməyə çalışsa da, buna nail ola bilməyib: "Baş verən hadisə bir daha sübut edir ki, Paşinyan hakimiyyətinin digər qolları üzrə üstünlüyünü təmin edə bilməyib. Müdafiə və təhlükəsizlik qurumlarında da olan yüksək rütbəli zabitlər Paşinyanın hakimiyyətilə barışmaq istəmirlər. Nikol Paşinyanın prosesin qarşısını ala biləcək siyasi gücü yoxdur. Köçəryanın həbsdə saxlanması "Qarabağ klanı"nı olduqca narahat edən məsələlərdən biri idi. Paşinyan dəfələrlə Qarabağa səfər edib, oradakı mövqeyini gücləndirməyə çalışsa da, son hadisə göstərdi ki, o, belə dəstəkdən məhrumdur. Paşinyanın insanları meydana səsləməsi də effekt verən deyil. Erməni KİV-inin verdiyi məlumata görə, onun çağırışına çox az adam reaksiya verib. Bununla sübut olunur ki, köhnə klan yavaş-yavaş təşəbbüsü ələ alır və Paşinyan üzərində ilk qələbəsini əldə etmiş oldu. Serj Sarkisyan, Robert Köçəryan, Bako Saakyan və Arkadi Qukasyanın bir cəbhədə birləşərək Paşinyana qarşı olmaları bəllidir. Bu mübarizənin vasitələrinin necə olacağı maraqlıdır. Bunu da yaxın günlərdə biz görəcəyik. Son bir ildə ciddi irəliləyişin olmadığını nəzərə alsaq, onda Paşinyanın xalq dəstəyini qazanacağı inandırıcı deyil".

*Məhəmmədəli QƏRİBLİ*

**Bu gün Cənubi Qafqazda əsas oyunçu hesab edilən Azərbaycanla münasibətlərin inkişaf etdirilməsi müxtəlif xarici dövlət və təşkilatların xüsusi maraq dairəsindədir. Çünki Azərbaycan regionun aparıcı dövləti olmaqla yanaşı, həm də burada reallaşdırılan transmilli layihələrin əsas təşəbbüskarı və mühüm iştirakçısıdır.**

# Tiflisin Ankara ilə münasibətləri korlanır... Prezidentin Estoniya bəyanatlarından çıxan nəticələr...



Azərbaycanın bu xüsusda həyata keçirdiyi siyasətdən qonşu ölkələr, o cümlədən Gürcüstan da yetərincə faydalanır. Bu mənada, Ermənistan istisna olmaqla, digər qonşuların ölkəmizlə işbirliyini daha da genişləndirmək niyyətləri təbii qarşılana bilər. Amma bəzən bu xüsusda müəyyən anlaşılmazlıqların qeydə alınması da özünü qabarıq surətdə göstərir. Məsələn, Gürcüstanda Salome Zurabişvili prezident postuna gəldikdən sonra süni şəkildə Azərbaycanla sərhəd məsələsi gündəmə gətirildi. Amma görünən budur ki, sözügedən şəxsin yanlış siyasəti üzündən Gürcüstanın digər qonşuları, o cümlədən gürcü iqtisadiyyatında böyük rol oynayan Türkiyə ilə də problemləri yaranmaqdadır.

Bu barədə danışmazdan öncə qeyd edək ki, Azərbaycan mehriban qonşuluq siyasətini nəzərə alıb, Tiflislə bütün problemlərin danışıqlar masası arxasında çözümünü istəyir. Bura sərhəd məsələsi də daxildir. Xatırladaq ki, Azərbaycan və Gürcüstan arasında sərhəd hələ SSRİ dövründə müəyyən olunub. Hər iki ölkənin müstəqilliyi əldə olunduqdan sonra Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə müvafiq dövlət komissiyaları yaradılıb və indiyədək bu proses çərçivəsində 480 kilometrlik Azərbaycan-Gürcüstan dövlət sərhədinin əksər hissəsinin delimitasiyasına dair komissiyalar səviyyəsində razılıq əldə edilib. Hazırda 166 kilometrlik hissələr üzrə ekspertlər səviyyəsində iş davam etdirilir. Hər hansı problem yaranmasa, qalan sərhədlərin də müəyyən olunması, o cümlədən "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun gələcəyinə də tam şəkildə aydınlıq gətiriləcək. Amma yuxarıda qeyd olunduğu kimi, Salome Zurabişvilinin müəyyən addımları indiki halda anlaşılmazdır. O, Rusiya və Türkiyə ilə də artıq müəyyən problemlər yaradır. Məsələn, Polşada səfərdə olarkən Salome Zurabişvili Rusiya barədə bildirib: "Rusiya problemdir, amma biz qorxmuruq, çünki qorxuya diqqət etsək, hər şeyi unudacağıq və yalnız bunu düşünəcəyik. Bu səhv yoldur". Rusiyanın "regnum.ru" portalı isə TİflisinAnkara ilə də bağlı siyasətində ciddi qüsurlar meydana çıxdığını bildirir: "Gürcüstan prezidenti Salome Zurabişvili Estoniyada Lenerat Meri adına beynəlxalq konfransda çıxış edərək bir neçə olduqca maraqlı bəyanat verib. Onun sözlərinə görə, "Avropanın gələcəyi hələ sonadək aydın deyil, Gürcüstanın halında isə daha çox qeyri-müəyyənlik var". Zurabişvili, adəti üzrə, "Rusiya ilə qonşuluq o qədər də təhlükəsiz deyil" deyərək "ruslarla dostluğu" da qılınclayıb. Amma budur, onun Türkiyə barədə bəyanatı, sadəcə həyəcan doğurur. Prezident qeyd edib: "Bu ölkənin qeyri-müəyyənlikdə olan Yaxın Şərqdə yerləşməklə hansı yolu seçəcəyini bilmirik". Axı Gürcüstan liderləri lap bu yaxınlarda Türkiyə haqda pafoslu bəyanatlarla çıxış edib, "iki dövlətin qarşılıqlı münasibətlərindəki işbirliyinin strateji xarakteri"ndən danışıblar. Xəzər bölgəsi enerji resurslarının Gürcüstan ərazisindən Avropa ölkələri və Türkiyəyə ixracına yönəlmiş kommunikasiyaları göstərərək, hamını müdafiə və təhlükəsizlik sahəsində sıx işbirliyinə qədər səmimi Azərbaycan-Gürcüstan-Türkiyə həmrəyliyi amilinin varlığına inandırıblar.

Bəs məsələ nədədir? "Le Monde" qəzeti Zurabişvili Gürcüstan prezidenti postuna keçəndən dərhal sonra proqnozlaşdırıb ki, o, "daha çox Avropa" siyasəti yürütməyə yönələcək ki, bu da onu beşinci yüzillikdən xristianlığın qalası "Qızıl qoyun dərisi" kimi qonşu Azərbaycan və Ermənistan arasında fərqləndirməlidir. Göstərməlidir ki, "Gürcüstan Avropaya gərəkdir", Tiflis bölgədə alternativ siyasi model qurmağa və Avropanın nüfuzunu genişləndirməyə qabildir. Hətta Zurabişvili Fransanın keçmiş diplomatı kimi inanırdı ki, yerli siyasətçilərdən fərqli olaraq, Avropa siyasətinin bütün qəlizliklərindən yaxşı baş çıxardır. Və tarixdə Cənubi Qafqazda Avropa quruculuğunun ilk səhifəsini açmağı bacarar, Fransa nəşrinin yazdığı kimi, "Brüssel və Tiflis arasındakı böyük məsafəyə baxmayaraq, yeni Avropanın bölgə laboratoriyası olar". Çünki xarici siyasətdə qabaqkı paradiqma Gürcüstanın yeni prezidentinə əl vermir, axı Tiflis hesablanmamış geopolitik çağırışlarla üzləşib. Gürcüstanın ən önəmli tərəfdaşlarından biri Türkiyə təkcə Avropa Birliyinə inteqrasiya perspektivini itirməyib, həm də, demək olar, bütün Yaxın Şərqi bürüyən burulğanlığın lap ortasına düşüb. Ölkə daxilində 2016-cı ildə baş tutmayan dövlət çevrilişi cəhdinin ardından parlament-prezident respublikasından sonra prezident respublikasına keçid edilib ki, bu da Avropada xoş qarşılanmır. Türkiyənin özündə güclənən avrasiyaçılıq axınları fonunda Brüsseldən, elə Parisdən də Türkiyənin daxili siyasətinə kəskin tənqidlərin səsləndiyi bir durumda Avropa mərkəziyyətçisi və ideologiyaca sazişlə tutulmuş Zurabişviliyə Ankara ilə yeni münasibətlər qurmaq yaraşmaz. İstisna deyil ki, Tiflis bir müddətdən sonra Türkiyənin Abxaziyada iştirakı problemini də aktuallaşdırar, türklərin "Abxaziya pəncərəsi"ni bağlamaq tələbilə çıxış edər. Gürcüstan Suriya yönündə Rusiya-Türkiyə alyansına da ehtiyatla yanaşır.

Yaddan çıxarmayacağıq ki, Ankara 2008-ci il avqust Qafqaz savaşından sonra, NATO üzrə müttəfiqlərindən fərqli olaraq, "beynəlxalq hüququ pozmağa" görə Moskvanı qınamayıb, "Qafqaz platforması" - ATƏT-in bölgə analoqu təşəbbüsü ilə çıxış edib. Bir sözlə, Tiflis və Ankara arasındakı münasibətlərdə "minuslar" və "sualtı axınlar" üzə çıxmağa başlayır. Elə, ya belə, bu, Tiflis və Bakı arasındakı münasibətlərə də təsir edəcək. Əlbəttə, Gürcüstan öz ərazisindən keçən Azərbaycanın energetik boru kəmərləri və tranzit yük daşımalarının mövcud inkişaf strategiyasını kəskin dəyişmək niyyətində deyil. Amma hər şeyə əsasən, əvvəlki ideoloji və geopolitik qat bu layihələrdən götürüləcək. Bununla yanaşı,Tiflis Yaxın Şərqin sabitsizlik çəkici ilə böhranda olan Avropanın zindanı arasına düşəcək.

Lakin Gürcüstanın Yaxın Şərqdə antirusiya blokuna girmək perspektivi yoxdur. Brüssel yolunda isə işıqforlar qırmızı işıq yandırıb ki, bu da müxtəlif yönlərdə güclü beynəlxalq siyasət formalaşdırmaq imkanı vermir. Nəticədə Zurabişvili güc mərkəzləri arasında vurnuxur. Bu, gec, ya da tez, ölkədə daxili-siyasi vəziyyətə təsir edəcək. Cənubi Qafqazda çağdaş siyasi durumun özəlliyi Zurabişvilini obyektivcəsinə Rusiyaya güzəştə getməyə və münasibətləri yoluna qoymağa vadar edir. Bu başdan asanlıqla demək olar ki, İran ətrafında durumun bundan sonrakı kəskinləşməsi Gürcüstanı özəl mövqeyə çıxaracaq: O, Bakı və Ankaraya birtərəfli yön götürməyə düzəliş etməli və Rusiya tərəfdən təhlükə adlanan duruma "xox" gəlməməlidir.

**Buna zaman gərəkdir. Zurabişvili qurduğu Avropayönlü geopolitik kombinasiyaların uydurma olduğuna inanmalı və bölgəsəl və kürəsəl gerçəkliklərə alışmalıdır. O, önəmli olsa da, hələlik növbətçi deyimlər ifadə edir. Sonra nə olacaq? ". Bu təhlildən də aydın göründüyü kimi, Zurabişvilinin siyasəti indi daha çox Gürcüstanın özünə zərər vurur.**

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# "Ocaq başında kartoflu kabab yeyənlərin" Ermənistanda çevriliş hazırlıqları - Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq üzərində "Qarabağ klanı"na tələ...

**Ermənistanda baş verən son olaylar bu ölkədə yeni daxili qarşıdurma yaranmaqda olduğunu, ölkənin hətta vətəndaş müharibəsi ilə üz-üzə qaldığını göstərir. Belə görünür ki, mövqelərini kifayət qədər gücləndirən "Qarabağ klanı" artıq baş nazir Nikol Paşinyana qarşı daha qəti şəkildə hərəkətə keçməyə başlayıb. Paşinyan isə baş verənləri birbaşa Dağlıq Qarabağ münaqişəsi ilə əlaqələndirərək, bəzi qüvvələrin Azərbaycanın nəzarətinə yeni əraziləri qaytarmaq niyyətində olduğunu iddia edib.**

Bütün bunlara əsas səbəb isə Ermənistanın ikinci prezidenti Robert Köçəryanın azadlığa çıxmasıdır. Qeyd edək ki, İrəvanın birinci instansiya məhkəməsi Robert Köçəryanı həbsdən azad edib. Ötən şənbə günü sabiq dövlət başçısının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Prosesdə hakim David Qriqoryan Köçəryanın azadlığa buraxılması barədə qərarı elan edib. O da bildirilir ki, Azərbaycanın işğal edilmiş ərazilərində yaradılan separatçı rejimin keçmiş "rəhbəri" Arkadi Qukasyan və indiki "rəhbəri" Bako Saakyan məhkəməyə şəxsi zəmanətlərini təqdim ediblər. Onlar birbaşa məhkəmə zalında zəmanət verərək, hərəsi 500 min dram və ya təxminən 1000 dollar təzminat ödəyiblər. Hər iki separatçı Köçəryanın keçmiş silahdaşıdır və onlar keçmiş prezidentin azad olunması üçün Nikol Paşinyana müraciət ediblər. İndi isə Köçaryanın azadlığa çıxması "Qarabağ klanı"nın real güc nümayişi sayılır.

Baş verənləri şərh edən Qarabağ separatçılarının Ermənistandakı "nümayəndəliyinin" müşaviri Qarnik İsaqulyan bildirir ki, İrəvanda konfliktdə maraqlı olan tərəflər keçmiş və indiki hakimiyyət nümayəndələri arasında parçalanmanı dərinləşdirir. O, Ermənistanda ictimaiyyətin inqilabçı və əksinqilabçılara bölünməyə başladığını bildirib. İsaqulyan bu durumda Nikol Paşinyanın özünü qəzet redaktoru kimi aparmaqdan imtina etməsi lazım olduğunu da deyib. O, Ermənistandakı parçalanmada ilk hədəfin Paşinyan olduğunu vurğulayaraq, proseslərin arxasında Levon Ter-Petrosyanın dayana biləcəyi eyhamını edib: "Bəzi qüvvələr 20 il sonra revanşa çalışır. Bu yolda Paşinyanın özü ilk hədəfdir". Separatçıların nümayəndəsi Köçəryan üzərində məhkəmənin azərbaycanlıların böyük arzularının reallaşdırılması anlamına gəldiyini bildirib. "Azadlıq" radiosuna müsahibəsində qondarma Qarabağ rejiminin "parlamentinin deputatı" Ayk Xanumyan isə daha açıq danışaraq, baş verənlərin arxasında məhz "Qarabağ klanı"nın, onun faktiki rəhbəri Serj Sarkisyanın dayandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Serj Sarkisyan, Ermənistanda hakimiyyətdə olmamasına rəğmən, Qarabağ elitası arasında böyük təsirini davam etdirir: "Hazırda Qarabağın hakim elitasının davranışını Sarkisyanın tapşırıqları müəyyənləşdirir O, başına elit qarabağlı cinayətkarları toplayıb və Paşinyana qarşı planları müzakirə edir. Bir zamanlar Qarabağda Serj Sarkisyan və onun təyin etdiyi Qarabağ "hakimiyyəti" var idi və heç kim Qarabağda İrəvanı tənqid etməyə cəsarət edə bilmirdi. Bu gün Qarabağ fərqli məsələlərdə tənqidlər səsləndirir. Mən bu istiqamətin Sarkisyanla əlaqəli olduğunu görürəm". Qondarma "DQR parlamentinin" yeganə müxalifətçi "deputatı" olduğunu bildirən Ayk Xanumyanın bildirdiyinə görə, Köçəryanın azadlığa çıxması da "Qarabağ klanı"nın planlarının mühüm tərkib hissəsidir: "Mən buna əminəm, içəridən gələn məlumatlar, onların müxtəlif monastırlarda, o cümlədən gecə tonqalları başında, kartoflu kabab süfrəsi arxasında və digər yerlərdə nə danışdıqları barədə informasiyalar var". Xanumyan deyir ki, gecələr tonqal başına yığışanlar, yaxud kabab yeyib planlar müzakirə edənlər general paqonlu keçmiş güc strukturları rəhbərləridir, "prezidentin" iqamətgahından bəzi məmurlardır, keçmiş "baş nazir" Araik Arutyunyandır və digərləridir: "Onların hamısını Serj Sarkisyan istiqamətləndirir və buna heç bir şübhəm yoxdur". Xanumyan bildirib ki, qondarma "təhlükəsizlik şurası katibi" general Vitali Balasanyanı çıxmaqla, bütün həmin adamları, o cümlədən Bako Saakyanın yaxın ətrafını, Araik Arutyunyanı, Serj Sarkisyanı, keçmiş "müdafiə naziri" Levon Mnatsakanyanı müxtəlif istiqamətlərdə törətdikləri birgə cinayətlər birləşdirir. O cümlədən, mühüm korrupsiya işləri üzrə: "Son vaxtlar mən dəfələrlə demişdim ki, Serj Sarkisyanın qohumları, ailə üzvləri, Dağlıq Qarabağ rəhbərliyinin müxtəlif nümayəndələri milyonlarla dram yuyublar və həmin adamları keçmişdə törətdikləri cinayətlər, barələrindəki böyük kompromatlar birləşdirir. Əgər işlər, belə deyək, Ermənistandakı kimi düz getməsə, onlar hamısı ifşa olunar, cinayət işləri açılar". Məhz belə bir vaxtda Paşinyanın istəklərinin əksinə olaraq Köçəryanın azadılğa çıxması "Qarabağ klanı"nın artıq Ermənistanda hadisələrə müdaxilə imkanlarının xeyli yüksəldiyini göstərir. "Qarabağ klanı"nın əsas dayağı isə Azərbaycanın işğal edilmiş ərazilərindəki separatçı rejimdir. Xatırladaq ki, hazırda Nikol Paşinyan və komandası ilə Dağlıq Qarabağdakı rejim arasında ciddi ixtilaflar mövcuddur. Bu ixtilaflar zaman-zaman üzə çıxır. Məsələn, bu günlərdə Şuşanın işğalının bayram edilməsi zamanı jurnalistlər general Vitali Balasanyandan təmas xəttində atışmaların artması haqda xəbərlərə münasibət soruşub. Balasanyan isə deyib: "Gedin bu haqda lift danışıqlarının aparıcısından soruşun". Balasanyan bununla Paşinyanın ötən ilin payızında Astanada Azərbaycan prezidenti ilə baş tutmuş qeyri-formal ünsiyyətinə eyham vurub və erməni mətbuatının yazdığına görə, Paşinyan bunu eşidəndə Bako Saakyana deyib: "Ona de özünü yığışdırsın, yoxsa gələn dəfə onunla başqa dildə danışarıq". Paşinyan Qarabağdan qayıdandan sonra yazmışdı ki, ona bəzi qüvvələrin Dağlıq Qarabağı "əksinqilab ocağına" çevirməyə çalışdığı haqda xəbərlər çatır. Və belə olsa o, Dağlıq Qarabağı "inqilab ocağına" çevirəcək. Amma görünən budur ki, "Qarabağ klanı" Paşinyandan tez tərpənərək Ermənistanın özündə yeni inqilaba start verib.

Bütün bunlar Paşinyan üçün şok effekti yaratdığından o, xalqı küçələrə çıxmağa çağırıb. Paşinyan ölkədə inqilabın ikinci mərhələsinin başladığını bildirib. Qeyd edək ki, Paşinyanın tərəfdarları onun çağırışı ilə paytaxt İrəvanda bütün məhkəmələrin giriş-çıxışlarını bağlayıblar. Etirazçılar tərəfindən Konstitusiya Məhkəməsinə heç kim buraxılmayıb. Baş nazir öz tərəfdarları qarşısında bildirib ki, Ermənistanda konkret qüvvələr ölkədə nifaq salmağa, onlarla Qarabağdakı ermənilər arasında qarşıdurma yaratmağa çalışır. Paşinyan məhkəmənin Köçəryanı azad etməsini isə "Qarabağ klanı"nın revanş niyyəti, eləcə də yeni ərazilərin Azərbaycanın nəzarətinə qaytarılması cəhdi kimi qiymətləndirib. Bu mənada, Paşinyana görə, 2016-cı ilin aprel müharibəsi ilə bağlı bütün xüsusatları araşdırmaq üçün parlament komissiyası yaratmağın vaxtı çatıb. Onun sözlərinə görə, əvvəlki korrupsioner-kriminal rejimdən daha çox "Dağlıq Qarabağ əhalisi" zərər çəkib: "İndi isə bu korrupsioner sistemin bəzi nümayəndələri öz şəxsi əlaqələrindən istifadə edib Ermənistan hökumətinə və baş nazirinə qarşı təbliğat qurublar. Bütün faktları araşdıraraq, mən bunun arxasında yeni müharibə başlatmağa və hətta ola bilsin, bəzi əraziləri verməyə hesablanmış qəsd planının dayandığını görürəm. Bu fəaliyyəti dövlətə xəyanətə bənzədirəm və baş nazir, ali baş komandan kimi həmin qəsd planının qarşısını almaq üçün ən sərt tədbirlər görəcəyəm". O, Qarabağ ermənilərini Ermənistan hökumətinə inanmağa çağırıb. Amma vəziyyət başqadır və görünən budur ki, Ermənistan daxilində parçalanma və qarşıdurma bir qədər də sürətlənəcək. Bunu Ermənistanın ombudsman aparatının rəhbəri Arman Tatoyan da istisna etmir: "Ölkədə vəziyyət nəzarətdən çıxır. Respublikanın bütün məhkəmələrinin giriş və çıxışlarına maneə törətmək barədə Ermənistan baş nazirinin çağırışı və ya bəyanatı ölkənin hüquq sisteminin təhlükəsizliyi və sabitliyi üçün son dərəcə təhlükəlidir". Ombudsman Nikol Paşinyanın bu çağırışını məhkəmələrin işinə müdaxilə adlandırıb və onu ölkədə sabitliyi pozmaqda ittiham edib: "Mən Ermənistan vətəndaşlarını məhkəmələrin binalarını bloklayan tədbirlərdən çəkinməyə çağırıram, əks halda hansısa bir gərginliyin baş verəcəyini istisna etməməliyik. Sosial şəbəkələrin monitorinqi göstərir ki, vətəndaşlar bir-birinə qarşı ən yüksək dərəcədə dözümsüzlük nümayiş etdirirlər, bir-birini təhqir və təhdid edirlər. Bu, ölkənin insan haqlarının müdafiəsi baxımından təhlükəlidir". Paşinyan isə, bütün bunlara rəğmən, ölkədə fəaliyyət göstərən məhkəmələrin binalarına girişin bağlanması fikrindən imtina etməyib. Bəzi ekspertlər bildirir ki, əslində, "Qarabağ klanı"nın istədiyi də budur. Çünki belə vəziyyətdə Ermənistanda qarşıdurma və ziddiyyət daha da dərinləşir, xaos artır. Məhz bu xaos durumunda "Qarabağ klanı" Paşinyanı devirməyin daha asan olduğunu düşür. Digər tərəfdən, bu vəziyyətdə zəbt olunmuş ərazilərin daha bir hissəsinin Azərbaycana qayıtması Paşinyanın mövqelərini daha sürətlə sarsıdacaq. Erməni mediası yazır ki, məsələnin başqa bir tərəfi də var, o da bundan ibarətdir ki, Paşinyan bəri başdan zəbt edilmiş ərazilərin bir hissəsinin Azərbaycanın nəzarətinə qayıtmasının günahkarı qismində "Qarabağ klanı"nı göstərmək istəyir və bununla həmin klana zərbə vuracağını düşünür. Yəni istənilən halda, həm Paşinyan, həm də "Qarabağ klanı" işğal altındakı ərazilərin daha bir hissəsinin Azərbaycana qayıtmasını istəyir və bunu da öz siyasi məqsədləri naminə edirlər. Beləliklə, Ermənistanda yaşananlar Qarabağ məsələsində tezliklə müəyyən dəyişikliklərin olmasını istisna etmir. Elə bu səbəbdən Ermənistan daxilində baş verənlər Azərbaycanda da xüsusi diqqətlə izlənir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Yarımçıq 400 bina mayın sonuna sənədləşdirilməli idi, cəmi 26 bina - Prezident fərmanı niyə zəif icra olunur...

**Azərbaycanda neçə ildir sənədsiz evlər məsələsi gündəmə gəlir. Problem ondadır ki, fərdi yaşayış evləri ilə yanaşı, çoxmənzilli binaların sənədləşməsində də problemlər var. Məlumata görə, 400-dən çox belə bina var.**

*"Onların bəziləri həbsdədir, elələri var ki, ölkədən qaçıb"*

***Nüsrət İbrahimli:** "Bunun əsas günahkarı binanı inşa edən MTK sahibləridir"*

Bu ilin fevralında Prezident İlham Əliyev "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərman imzalayıb. Fərmanla müəyyən edilir ki, 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla, tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına müəyyən şərtlər daxilində icazə verilir. Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanından artıq 4 ay keçsə də, cəmi 26 binaya dair sənədlər komplektləşdirilərək, bu binaların istismara hazır olması barədə rəy tərtib edilib. Həmin rəy isə aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunub.

Görünən odur ki, Prezidentin bu fərmanının da icrası gecikir. Hansı ki, müvafiq qurumlar fərmandan irəli gələn məsələləri həll etməli idilər. Bu iş mayın sonuna qədər yekunlaşmalı idi. Ancaq görünən odur ki, müvafiq qurumlar üzərlərinə düşən vəzifənin icrasına ya maraq göstərmir, ya da nəyəsə görə məsələnin həllini gecikdirirlər. Ya da ortada digər səbəblər var. Reallıq ondan ibarətdir ki, indiyə qədər 26 binanın istismara hazır olması barədə rəy verilib. Bu da çox kiçik rəqəmdir.

Maraqlıdır, çoxmənzilli binaların istismara qəbul edilməsi ilə bağlı ölkə başçısının qərarı niyə zəif icra olunur? Bunun səbəbi nə ilə bağlıdır?

**Sözügedən məsələyə aydınlıq gətirən əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli bunu bir sıra amillərlə əlaqələndirdi:** "Mənzillərin çıxarış sənədinin - "kupça"nın alınması məsələsi ilə bağlı Prezidentin



fərmanında 3 əsas şərt göstərilir. Belə ki, "kupça"nın verilməsi əsasən yanğından təhlükəsizlik, qaldırıcı qurğuların təhlükəsizliyi və binanın dayanıqlığı üçün prioritet olmalıdır. Bununla bağlı sənədlər qaydasında olmadığına görə proses gecikir. Bunun da günahkarı binanı inşa edən mənzil-tikinti kooperativləridir (MTK). Düşünmürəm ki, müvafiq dövlət qurumları prosesin gecikməsində maraqlıdırlar. Əksinə, onlar maraqlıdırlar ki, binanı tez təhvil versinlər. Çünki ölkə Prezidenti onların qarşısında tapşırıq qoyub ki, prosesi sürətləndirsinlər. Ancaq problem ondadır ki, binanı tikən MTK sahibləri bununla bağlı tələb olunan sənədləri vaxtında düzəltməyiblər. Sənədlərdə əyər-əskiklik var. Digər tərəfdən, MTK sahiblərinin bəziləri həbsdədir, elələri var ki, ölkədən qaçıb. Elə MTK-lar var ki, müflis olduqları üçün binalar qalıb başlı-başına. Əsasən bu səbəblər üzündən çoxmənzilli binaların istismarına icazənin verilməsi gecikir. Bu səbəbdən bəzi bina sakinləri yığışıb problemi həll etməyə çalışırlar. Eləleri var ki, gözləyir kimsə gəlib onların problemini həll edəcək. Bir sözlə, əsas problem binanı tikənlərin ortalıqda olmaması ilə bağlıdır".

***Vidadi ORDAHALLI***

# Bakı və Bakı ətrafında 70 minə yaxın ev üçün əmlak amnistiyası...

**Yaxın müddət ərazində Azərbaycanda bütün sənədsiz evlərə sənəd veriləcək. İllərdir sənədsiz mənzildə yaşayan vətəndaşların problemi öz həllini tapacaq. Qeyd edək ki, sənədsiz evlərin özəlləşdirilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığı olub. Tapşırığa əsasən, Bakıda olan sənədsiz evlərin siyahısı hazırlanacaq.**



*"70 minə yaxın mənzil inşaata icazə verilməyən və ya nisbətən risqli hesab edilən ərazilərdədir"*

***Vüqar Bayramov:** "Sənədsiz evlərə əmlak amnistiyası verilməsi daha münasib olar"*

Onu da bildirək ki, Əmlak Məsələləri Dövlət Komitəsi özbaşına və sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı konsepsiya hazırlayır

Komitənin yaydığı məlumatda qeyd olunur ki, bir çox hallarda, vətəndaşlar kənd təsərrüfatı təyinatlı torpaqlarda, mühafizə zolaqlarında yaşayış və ya qeyri-yaşayış evləri inşa edirlər, buna görə də onların qeydiyyatı qanunvericiliklə mümkün olmur.

Bəllidir ki, bu gün Bakı və ətraf ərazilərdə yaşayış üçün icazə verilməyən yerlərdə, yüksək gərginlikli elektrik xətlərinin altında evlər inşa olunub. Bu tip evlərin qeydiyyatının mümkün olmadığı haqqında məlumatlar yayılır.

**İqtisadçı-ekspert Vüqar Bayramov bildirdi ki, Azərbaycan Prezidentinin sənədsiz evlərin özəlləşdirilməsi ilə bağlı problemin həll edilməsi barədə tapşırığından sonra bu məsələ ilə əlaqədar formalaşdırılmış komissiyanın fəaliyyətinin güclənməsi hiss olunur:** "İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD) 2014-cü ildə sənədsiz inşa edilmiş tikililərin sənədləşdirilməsi ilə bağlı təkliflər paketini Azərbaycan hökumətinə təqdim edib: "Təklif etdiyimiz mexanizmlə bağlı son həftələr məsul dövlət qurumlarında görüş və müzakirələrimiz olub. Əvvəla bizim təkliflərimiz əmlak amnistiyasını nəzərdə tutur. O baxımdan yaxın zamanda sənədsiz əmlaka amnistiya verilməsi məqsədəuyğun olardı. İlkin monitorinqlər göstərir ki, Bakı və ətrafdakı ərazilərdə sənədsiz həyət evlərinin sayı 450 mindir. Onların 70 minə yaxını inşaata icazə verilməyən və ya nisbətən risqli hesab edilən ərazilərdədir. Bunlar yüksək gərginlikli elektrik, mavi qaz, yaxud su xətlərinin yaxınlığında olan evlərdir. Əgər elektrik, ya da su xəttinin istiqamətini dəyişmək mümkündürsə, o zaman evlərə toxunulmasın. Bununla da həmin ərazi təhlükəli zona anlayışından çıxarılsın. Amma su, qaz xəttinin üstündə tikilən evlərə real təhlükə varsa, ev sahiblərinə kompensasiya ödənilməklə evlərin köçürülməsi təmin edilsin".

Həmsöhbətimiz onu da vurğuladı ki, mənzil sahiblərinin günahı deyil ki, bələdiyyə onlara sənəd verib, onlar da həmin sənədlə evlərini özəlləşdirə bilmirlər: "Əgər bu cür sənədlərlə evi özəlləşdirmək mümkün deyilsə, həmin sənədlər verilməməli idi. Xüsusən də ev sahiblərinin həmin sənədləri müəyyən xərc bahasına aldıqları da nəzərə alınmalıdır. Bizim mexanizm ondan ibarətdir ki, evlərin rəsmiləşdirilməsi üçün çox simvolik məbləğ müəyyənləşdirilməli və məbləğ ev sahibi üçün hər hansı bir ağırlıq yaratmamalıdır. Məbləğ ödənildikdən sonra evlərin qeydə alınması və "kupça" ilə təmin olunması prosesi başlanmalıdır. Əslində, bu prosedur dövlətin özü üçün də əhəmiyyətlidir.

Bir tərəfdən ev sahiblərinin mülkiyyət hüquqları təmin edilir, digər tərəfdən də əmlak vergiyə cəlb olunur. Ona görə problemin həlli dövlət qurumlarının özünün marağında olmalı və onlar qısa zamanda məsələnin aradan qaldırılmasına çalışmalıdırlar".

***Günel CƏLİLOVA***

# Şöhrətli peşəkarlar İncəsənət Universitetində qabiliyyət imtahanları götürənlərdən möhkəm narazılıq etdilər...

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) abituriyentlər üçün xüsusi qabiliyyət imtahanları keçirilir. Abituriyentlər test imtahanları verməmişdən əvvəl ADMİU-da təşkil edilən qabiliyyət imtahanlarında iştirak edirlər. Onların aktyorluq, rejissorluq qabiliyyətləri incəsənət xadimləri tərəfindən qiymətləndirilir.**



ADMİU-nun müvafiq fakültələrinin tələbələri olmaq istəyən abituriyentlərdən qabiliyyət imtahanlarını kimlər götürür?

Məlumatlara görə, qabiliyyət imtahanlarına Azərbaycanın görkəmli kino və teatr xadimləri, aktyorlar, rejissorlar cəlb edilmirlər. Bunu dolayısı ilə Xalq artisti, "Şöhrət" ordenli görkəmli aktyor Rasim Balayev də mətbuata verdiyi açıqlamada təsdiqləyib. R.Balayev qabiliyyət imtahanları ilə bağlı iradlarını bildirərkən deyib ki, artıq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin qəbul imtahanlarında iştiraka dəvət almır. R.Balayev gələcək aktyorların seçim sistemindən narazıdır. Aktyor hesab edir ki, Azərbaycan teatrı və kinosunda artıq uzun müddətdir sakitlik hökm sürür. O bunun səbəbini gələcək aktyorların seçiminin düzgün aparılmaması ilə izah edib. R.Balayevin sözlərinə görə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə, Bakı Rəssamlıq Akademiyasına, Milli Konservatoriyaya daxil olan insanlar digər imtahanları da verməlidir və insanların istedadını nəzərə almaq lazımdır: "Bir dəfə məni Mədəniyyət və İncəsənət Universitetinin qəbul imtahanında iştiraka dəvət etdilər. Mən bir neçə iradımı bildirdim və görünür, bu, kiminsə xoşuna gəlməyib. Bundan sonra daha məni çağırmadılar. Onda mən digər mədəniyyət xadimləri ilə birlikdə həqiqi aktyorluq istedadı olan beş gənci seçmişdim. Lakin sonra bildim ki, onlar test imtahanları zamanı lazımı balı toplamadıqlarına görə universitetə daxil ola bilməyiblər. Qız və oğlanların əksəriyyəti aktyorluq istedadı olmaya-olmaya Mədəniyyət və İncəsənət Universitetinə daxil olurlar. Çünki onların balları yüksək deyil. Hər bir insan peşə seçərkən öz qabiliyyətinin bu və ya digər ixtisasa uyğun gəlib-gəlmədiyini nəzərə almalıdır".

R.Balayevin iradlarının haqlı olduğunu deyən bəzi rejissor və aktyorlar hesab edirlər ki, qabiliyyət imtahanlarının götürülməsində görkəmli kino və teatr xadimlərinin iştirakı təmin edilməlidir. Ümumiyyətlə, çox zaman qabiliyyət imtahanlarında ADMİU-nun orta səviyyəli sənət sahibi olan müəllimlərinin iştirak etdiyini bildirən mütəxəssislər hesab edirlər ki, bu, kinoya və teatra istedadı olmayan gənclərin gəlməsinə səbəb ola bilər.

***Gülşən Kəngərli:* "Abituriyentlərdən qabiliyyət imtahanlarını bizim universitetin öz müəllimləri götürür"**

***Elçin Cəfərov:* "Qəbul imtahanlarında iştirak edən şəxslərin adları məxfi məlumatdır"**

***Zülfiyyə Eldarqızı:* "Mən bu universitetdə işlədiyim dövrdə qəbul imtahanlarına əsasən universitetin öz müəllimləri düşürdü"**

**ADMİU-nun prorektoru Gülşən Kəngərli isə "Bakı-Xəbər"ə bildirdi ki, bu ali məktəbdə keçirilən qabiliyyət imtahanlarına kənardan mütəxəssis dəvət edilmir.** "Abituriyentlərdən qabiliyyət imtahanlarını bizim universitetin öz müəllimləri götürür, biz bu işə kənardan aktyor, rejissor cəlb etmirik" - deyə o qeyd etdi.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mətbuat xidmətinin rəhbəri Elçin Cəfərov isə bizimlə söhbətində bildirdi ki, qəbul imtahanlarında iştirak edən şəxslərin adları ictimaiyyət üçün açıqlanmır:** "Qəbul imtahanlarında iştirak edən şəxslərin adları məxfi məlumatdır və bu barədə informasiya verə bilmərik".

**ADMİU-nun sabiq müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zülfiyyə Eldarqızı isə "Bakı-Xəbər"ə Xalq artistinin iradı ilə bağlı bildirdi ki, ADMİU-da abituriyentlərdən qabiliyyət imtahanlarını təsadüfi adamlar götürmür.** O qeyd etdi ki, onun bu ali məktəbdə çalışdığı illərdə abituriyentlərdən respublikanın tanınmış mədəniyyət və incəsənət xadimləri qabiliyyət imtahanları götürüblər. Qəbul prosedurlarının ilbəil dəyişdiyini deyən Z.Eldarqızının sözlərinə görə, bu imtahanları əsasən ADMİU-nun müəllimləri götürüb: "Mən bu universitetdə işlədiyim dövrdə qəbul imtahanlarına əsasən universitetin öz müəllimləri düşürdü. Bu ali məktəbdə görkəmli sənət adamları, əməkdar və xalq artistləri dərs deyir. Mən özüm də qəbul imtahanlarına düşmüşəm. Ali məktəbin rəhbərliyi dəyişdikdən sonra, bildiyim qədər, qəbul imtahanlarını götürən mütəxəssisləri kənardan cəlb edirlər. Kənardan gətirilən mütəxəssislər də mədəniyyət və incəsənətimizin görkəmli simalarıdır. Onlardan xalq artistləri Şəfiqə Məmmədovanın, Cənnət Səlimovanın, Bəhram Osmanovun və başqalarının adlarını çəkə bilərəm. Ola bilsin, görkəmli sənətkarımız Rasim Balayev qəbul imtahanlarına düşməyib. Ümid edirəm ki, Rasim Balayevin də imtahanda iştirakı təmin edilər. Hansısa bir tanınmış sənətkar orada iştirak etmirsə, bu o demək deyil ki, abituriyentlərdən imtahan götürənlər zəif sənətkarlardır. Əlbəttə, görkəmli aktyorumuz Rasim Balayevin gələcək aktyor və aktisaların seçimində iştirakı bizə müsbət mənada çox şey qazandırar" - deyə Z.Eldarqızı bildirdi.

*İradə SARIYEVA*

# "Kitayski" osetrin balıqlar - Bakı restoranlarında yediyimiz bu imiş...

**Azərbaycanda nərəcinsli balıqların yetişdirilməsinin böyük ənənəsi olub. Sovetlər vaxtı Azərbaycanda bunun üçün xüsusi zavodlar fəaliyyət göstərib. Ancaq illər keçdikcə, bu ənənəyə son qoyulub. Vaxtilə Azərbaycan istehsalı olan nərəcinsli balıqlar artıq ölkəmizə idxal olunur. Bazarda olan nərəcinsli balıqların 99 faizi Rusiya və Çindən gətirilir.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsinin Brakonerliyə qarşı mübarizə və balıq ehtiyatlarının mühafizəsi bölməsinin rəisi Elmir Süleymanov bir neçə gün öncə media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Azərbaycanda satılan həmin balıqlar əsasən Rusiya və Çində süni şəraitdə yetişdirilmiş balıqlardır.

Maraqlıdır, bu sahəyə maraq niyə azalıb? Axı Azərbaycanda nərəcinsli balıqların yetişdirilməsi üçün xüsusi fermalar formalaşıb. Buna baxmayaraq, hələ də ölkəyə nərəcinsli balıqlar Rusiya və Çindən idxal olunur.

**Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti Qadir Bayramlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, illər öncə Xəzər dənizindən nərəcinsli balığın tutulması geniş miqyas almışdı.** Ancaq son illər ərzində Azərbaycanın bu sahə ilə bağlı Xəzər dənizindəki payı azalıb. Nərəcinsli balıqların azalmasının bir neçə səbəbi var: "Məlumdur ki, Sovet dönəmində balıqartırma zavodları aktiv fəaliyyət göstərirdilər. Ancaq indiki dövrdə həmin zavodların fəaliyyəti əvvəlki kimi effektli deyil. Eyni zamanda, Xəzərin Azərbaycan sektorunun neft tullantıları ilə çirklənməsi də nərəcinsli balıqların azalmasına səbəb olub. Bəllidir ki, nərə balıqları təmiz suda yaşamağa üstünlük verirlər. Digər səbəb kimi onu da deyim ki, nərə balıqları Kür çayının mənbəyinə doğru istiqamət alıb orada çoxalırdılar. Ancaq indi həmin ərazidə elektrik stansiyaları tikildiyi üçün balıqların çoxalma yerinə getməsi mümkün deyil".

***Çingiz İsmayılov:* "Azərbaycanda nərə balıqlarının sayının artırılması ilə bağlı bir sıra işlər görülür"**

***Qadir Bayramlı:* "Nərəcinsli balıq təsərrüfatının inkişafı üçün xarici təcrübədən istifadə edərək bu sahəni canlandırmaq olar"**

Həmsöhbətimiz onu da əlavə etdi ki, nərəcinsli balıqların azalmasının səbəblərindən biri də qaçaqmalçıların qanunsuz yolla balıq tutmasıdır. Q.Bayramlının sözlərinə görə, nərəcinsli balıq təsərrüfatını inkişaf etdirmək olar. Bunun üçün xarici təcrübədən istifadə edərək bu sahəni canlandırmaq olar.

**Coğrafiya elmləri doktoru Çingiz İsmayılov da bildirdi ki, Azərbaycanda nərə balıqlarının sayının artırılması ilə bağlı bir sıra işlər görülür:** "Hər il təqribən beş milyona yaxın nərə balığı süni şəkildə yetişdirilir. Amma bunu qənaətbəxş hesab etmək olmaz. Çünki layihəyə əsasən, il ərzində 20 milyon nərə balığı yetişdirilib Xəzərə buraxılmalıdır. Həmçinin, süni şəkildə yetişdirilən balıqların cəmi üç faizi böyüyür. Yeni əksər balıqlar kiçik yaşlarında məhv olur. Adətən digər balıqlar yeyir, yaxud adaptasiya olmadığına görə bu balıqlar uzun müddət yaşayıb nəsil artıra bilmirlər. Hazırda ən böyük süni balıq yetişdirmə məntəqəsi Neftçala rayonunun Xıllı kəndində yerləşən zavoddur. Amma bu kifayət etmir. Çünki nərə balıqlarının nəsli kəsilmək üzrədir və bu çox ciddi bir problemdir. Bunun əsas səbəbi isə qanunsuz balıq ovlanmasıdır. Bu problem təkcə bizdə deyil. Rusiya, Qazaxıstan, Azərbaycanda qanunsuz şəkildə nərə balıqları ovlanaraq məhv edilir. Bunun qarşısı alınmazsa, 10-15 ildən sonra nərə balıqlarının nəsli tamamilə kəsilə bilər".

*Günel CƏLİLOVA*

# "Unibank" kredit məsələsində jurnalistə qarşı məhkəmə predmeti olan 4 qanunsuzluğa yol verib...

**"Bakı Xəbər" qəzetinin əməkdaşı Samirə Səfərovanın 2013-cü ilin avqustunda "Unibank"dan kredit götürməsi və iki il keçmədən ciddi problemlərlə üzləşməsi barədə xəbər vermişdik. Bu barədə oxumayanlar üçün qısaca xatırlatma verək ki, 2013-cü ilin avqustunda əməkdaşımız "Unibank"dan 3 min manat kredit və min manatlıq Al kart götürüb.**

Bir il aylıq ödənişlərini düzənli etdikdən sonra 2014-cü ilin iyul ayında yenidən həmin banka müraciət edərək daha min manat kredit götürüb, bu krediti isə ona dollarla hesablayacaqlarını bildiriblər, jurnalist dollarla istəmədiyini dedikdə isə bildiriblər ki, pulu ona manatla verəcəklər. Lakin çox keçmədən, ayda bir neçə dəfə ödəniş etmək həm maddi, həm də fiziki cəhətdən çətinlik törətdiyi üçün banka müraciət edərək kreditlərinin birləşdirilməsini və beləliklə ayda bir dəfə ödəniş etməsini istəyib və 2014-cü ilin dekabrında onun kreditlərini birləşdirərək ümumi məbləğin 5 min dollar etdiyini deyiblər (manatla bu məbləğ 3900 manat idi-red). Bildiriblər ki, hazırda bank manatla kredit vermədiyindən (!) onun da borcunu dollarla sənədləşdiriblər. Əməkdaşımız buna etiraz etdikdə isə deyiblər ki, bunun sizə dəxli yoxdu, siz ödənişlərinizi dollar ekvivalentində manatla edəcəksiz. Lakin iki ay keçmədən, məsələnin xanım jurnalistə dəxli olub, özü də birbaşa anlamda. Belə ki, 2015-i ilin fevralında devalvasiya baş verib və bankdan əməkdaşımıza zəng vurub deyiblər ki, bundan sonra aylıq ödənişləriniz 160 deyil, 192 manat təşkil edir. Əməkdaşımız banka gedərək buna etiraz edib, bildirib ki, bankdan kreditləri manatla götürüb və onların həmin məbləği dollara çevirməsinə də etiraz edib, lakin onu arxayın edibələr ki, heç bir şey baş verən deyil, o üzdən də ona hansısa şəkildə güzəşt tanınmalıdır. Lakin bankın heç bir yetkilisi onu qəbul etmək istəməyib, sıravi işçilər isə bunun onların səlahiyyətində olmadığını bildiriblər. Əlacsız qalan əməkdaşımız aylıq ödənişlərini əvvəlki qaydada - 160 manatdan ödəməkdə davam edib. Lakin 3 ay belə davam etdikdən sonra bank, ayda 160 manat ödəniş etməsinə və bunu heç bir halda yubandırmamasına rəğmən, onu məhkəməyə verib. Üstəlik, Səbail məhkəməsi də vətəndaşın mənafeyinə etinasızlıq göstərərək bankın xeyrinə addım atıb və aylıq maaşının 50 faizinin (!) bankın xeyrinə tutulması barədə qərar çıxarıb. Ədalət mühakiməsindən əli üzülən S.Səfərova 2018-ci ilin sentyabrına kimi ödənişlərini ayda 100 manat olmaqla bu şəkildə ödəyib. Ötən ilin sentyabrında isə bankın əməkdaşları yenidən jurnalistə hər gün zəng etməyə başlayıblar. Gündə bir neçə dəfə əməkdaşımıza telefon açan "Unibank" işçiləri onu hər vəchlə inandırmağa çalışıblar ki, gəlib borcunu yenidən hesablatsa onun üzərindən məhkəmə qətnaməsi götürüləcək. Hətta deyiblər ki, bunu edərsinizsə, sizə yenidən kredit verməyə də hazırıq. Əməkdaşımız bir neçə gün bu zənglərə əhəmiyyət verməyib, bildirib ki, ona heç nə lazım deyil və borcunu eyni şəkildə ödəməkdə davam edəcək. Lakin israrlı zənglər öz işini görüb. Sentyabrın 13-də əməkdaşımız bankın Nərimanov rayonundakı filialına gedib və ona bildiriblər ki, sizə ən aşağı faiz tətbiq olunacaq, cəmi 15 faiz. Məhz bundan sonra məsələnin mahiyyəti əməkdaşımıza aydın olub - sən demə, məhkəmə qərarı qüvvədə olduğu müddətdə bank özünün soyğunçu faiz siyasətindən məhrum qalıbmış! Lakin bu sa son deyil. Əməkdaşımız sənədləri imzalayıb qalxarkən digər bank işçisinin qarşısındakı müştəriyə borcunu 7 faizlə (!) hesabladığını dediyini eşidib, lakin "bəs onda mənə niyə 15 faiz" sualı havadan asılı qalıb. Beləliklə, yeni qrafikə əsasən əməkdaşımız ötən ilin sentyabrından ayda 120 manat ödəniş etməyə başlayıb. Bu, Prezidentin problemli kreditlərlə bağlı məlum Fərmanı çıxanadək davam edib və o, Maliyyə Bazarlarına Nəzarət Palatasının saytında adının çıxmasını gözləyib. Bank isə bu müddətdə də ondan ödəniş tələb etməyə davam edib. Samirə xanım deyir ki, Palatanın saytında adının çıxması və ona 3451 manat kompensasiya hesablanması sanki çiyinlərindən ağır bir yükü qaldırıb. Təbii, bu iki aylıq müddətdə bankın onun özünə, ailə üzvlərinə, iş yerinə, hətta baş redaktoruna zəngləri ara verməyib. Mayın 15-də telefonuna bankdan gələn SMS isə onu çaşdırıb, çünki burada Palatanın təyin etdiyi 3451 manat kompensasiya məbləği 297 manat azaldılaraq 3154 manat olmuşdu. Bank bunu mart-aprel ayları üçün ödənişlərin olunmaması və gecikmə ilə bağlı əlavə faiz hesablanması ilə izah edib, halbuki, Palatanın əməkdaşımızla bağlı açıqladığı cədvəldə "qalıq borc" qrafasında "0" yazılıb, yəni bu illər ərzində əməkdaşımızın ödədiyi pullar bankın borcunu nəinki tamamilə qapatmağa, hətta artıq ödənilən 3451 manat vəsaitin onun özünə kompensasiya şəklində qaytarılmasına yetərli olub. O halda, yəqin razılaşarsınız ki, "Unibank"ın hər cür fırıldağa əl ataraq insanları özünə borclu çıxarmağa çalışması heç cür anlaşılmır. Bütün bu qanunsuzluqlarla yanaşı onu da bildirməliyik ki, "Unibank" bu müddət ərzində əməkdaşımıza qarşı düz dörd qanunsuz hərəkətə yol verib. Birincisi, onun manatla götürdüyü krediti cəmi ilyarım sonra dollara çevirməklə, ikincisi, MBNP-nin ona kompensasiya şəklində hesabladığı məbləğdən qanunsuz olaraq 297 manat çıxmaqla, üçüncüsü, Prezidentin bərpa etdiyi ədalət sayəsində kompensasiya ödənişindən sonra da daha bir il ayda 120 manat ödəniş tələb etməklə, dördüncüsü, müştəri ilə probleme görə onun yaxınlarını və iş yoldaşlarını vaxt-bivaxt narahat etməklə. Bütün bunlar isə düşünməyə əsas verir ki, "Unibank" cənab Prezidentin ölkə əhalisinin maddi rifah halının yaxşılaşdırılmasına yönəlik addımlarına mənfi təsir göstərən fəaliyyətindən geri çəkilmək niyyətində deyil...




Mövzuya qayıdacağıq.

***Məhəmmədəli QƏRİBLİ***

# Lüzumsuz yerlərdə quraşdırılan radarlar xeyirdən daha çox ziyan vurur



## *İlqar Hüseynli: "Ölkəmizin yollarında sürət rejiminin pozulması ilə bağlı ciddi problemlər var"*

**"Elə yollar var ki, orda yüksək sürətlə avtomobil idarə olunmur, bu yerlərdə radarın quraşdırılması həm artıq vəsaitin xərclənməsinə, həm də təhlükənin yaranmasına səbəb olur"**

"Lazım olmayan yerlərə radar qoyub, təhlükə yaradırıq". Bu fikri millət vəkili Hikmət Babaoğlu parlamentin mayın 17-də keçirilən iclasında "Yol hərəkəti haqqında" və "Notariat haqqında" qanunlara dəyişiklik edilməsi məsələsinin müzakirəsi zamanı deyib. Millət vəkili bildirib ki, "Yol hərəkəti haqqında" qanun bu sahənin təhlükəsizliyinin təmin edilməsi üçün olmalıdır: "Amma biz nə edirik? Bəzi hallarda lazım olmayan yerlərdə də radar dediyimiz xüsusi qurğunu yerləşdiririk. Beləliklə, bu, sürücülərdə kütləvi mənfi emosiya doğurur və idarəetmədə təhlükəli hallar yaradır. Yəni nəticə etibarilə təhlükəsizlik əvəzinə, təhlükəli vəziyyət yaradırıq. Ona görə də yaxşı olardı ki, bu sahədə yeni qanunlar, yeni dəyişikliklər təhlükəsizliyə xidmət etsin". Ekspertlərdə lazım olmayan yerlərdə radarların quraşdırıldığını etiraf etdi. Sosial məsələlər üzrə ekspert İlqar Hüsenli qeyd etdi ki, həqiqətən də, ölkəmizin yollarında sürət rejiminin pozulması ilə bağlı ciddi problemlər var. Müşahidələr və faktlar göstərir ki, ən ağır qəzalar məhz sürət rejiminin pozulması səbəbindən baş verir. Ona görə də sürət rejiminə səmərəli nəzarət yol hərəkəti təhlükəsizliyinin təmin olunmasının əsas amillərindən biridir. Bu baxımdan, sürət rejiminə səmərəli nəzarət mütləq olmalıdır: "Ancaq bu nəzarət lazım olmayan yerlər üçün tətbiq olunmamalıdır. Elə yerlər, yollar var ki, orda yüksək sürətlə avtomobil idarə olunmur. Belə yollarda radarın quraşdırılması həm artıq vəsaitin xərclənməsinə, həm də təhlükənin yaranmasına səbəb olur".

***Günel CƏLİLOVA***

**İsrailin evsahibliyi ilə keçirlən "Avrovizya-2019" mahnı müsabiqəsi başa çatsa da, müsabiqə iştirakçıları ilə bağlı rəylər, fikirlər səngimək bilmir. Xüsusən də "Dare to Dream" ("Arzulamağa cürət et") şüarı altında təşkil olunan builki yarışmada Azərbaycanı "Truth" mahnısı ilə təmsil edən və yarışmanın gerçək favoritinə çevrilən Çingiz Mustafayevin 7-ci pillədə qərarlaşması sosial şəbəkələrdə peşəkarlar tərəfindən narazılıqla qarşılanıb.**

# İsrail "Avroviziya"sının nəticələri Azərbaycanla bağlı hansı yanaşmaları ortaya qoydu...

***Zümrüd Dadaşzadə:*** *"Çingizə münasibətdə münsiflər normal mövqe tutdular, ancaq tamaşaçı, dinləyici səsvermələrinin nəticələri məni təəccübləndirir"*



*"Hesab edirəm ki, Çingiz Mustafayevin tutduğu 7-ci yerlə onun göstərdiyi performans, yaratdığı obraz, təqdim etdiyi ifa qətiyyən uzlaşmır"*

Azərbaycanla yanaşı, hətta Rusiyanın, Belarusun və digər ölkələrin də peşəkar musiqiçiləri hesab edirlər ki, Ç.Mustafayevin həm ifası, həm də təqdim etdiyi performans 7-ci yerə deyil, ilk 3-lüyə layiq olub.

Qeyd edək ki, finalda tamaşaçılar qarşısında Malta, Albaniya, Çexiya, Almaniya, Rusiya, Danimarka, San-Marino, Şimali Makedoniya, İsveç, Sloveniya, Kipr, Niderland, Yunanıstan, İsrail, Norveç, Böyük Britaniya, İslandiya, Estoniya, Belarus, Azərbaycan, Fransa, İtaliya, Serbiya, İsveçrə, Avstraliya və İspaniyadan olan ifaçılar çıxış ediblər.

Yarışmada, ümumilikdə, 42 ölkə iştirak edib. Azərbaycana Albaniya 8, Malta 8, Makedoniya 4, San-Marino 4, Estoniya 5, Polşa 2, Norveç 5, İspaniya 7, Avstriya 4, Böyük Britaniya 7, İtaliya 7, Albaniya 8, Macarıstan 5, Moldova 6, İrlandiya 7, Rumıniya 10, Kipr 6, Avstraliya 2, Rusiya 12, İsveç 5, Litva 10, Serbiya 3, İslandiya 4, Gürcüstan 10, Yunanıstan 8, Latviya 6, Çexiya 5, Danimarka 4, Fransa 6, Finlandiya 2, Sloveniya 10, İsrail isə 7 xal verib.

Ötən müsabiqələrlə müqayisədə nə dəyişib? Azərbaycan təmsilçisinə münasibətdə hansısa siyasi çalarlar özünü göstəribmi? Peşəkar münsiflər heyəti və tamaşaçıların səsverməsində fərqliliklər olubmu?

"Avrovizya-2019"un nəticələrini təhlil edən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, musiqişünas, musiqi tənqidçisi, pedaqoq, əməkdar incəsənət xadimi, professor Zümrüd Dadaşzadə "Bakı-Xəbər"ə bildirdi ki, bu müsabiqəni mütəmadi olaraq izləyib. "Azərbaycan bu müsabiqədə təmsil olunandan fəalam. Həm dəfələrlə münsiflər heyətinin üzvü olmuşam, həm də münsiflər heyətinə sədrlik etmişəm. Uzun müddətdir davamlı olaraq bu yarışmanı izləyirəm. Mən Çingiz Mustafayevin ifasını eşidən kimi onun ifası məni riqqətə gətirdi. Başa düşdüm ki, bu mahnı və onun ifaçısı müsabiqənin favoriti qismində olacaq. Onun favorit olacağı hələ müsabiqədən əvvəl aydın idi. Çingizin çıxışı olduqca yüksək səviyyədə idi. Əgər bir peşəkar kimi onun çıxışını dəyərləndirsək, qeyd etməliyik ki, Çingizin yaratdığı obraz çox fərqli idi. Bu çox məğrur, vüqarlı, sanballı, şərəfli bir obraz idi ki, biz onu səhnədə gördük və əlbəttə, ona qibtə etməmək mümkünsüz idi. Mənim "Facebook" dostluğumda Moskva musiqişünasları var, özü də onlar akademik musiqi ilə məşğul olan insanlardır. Onların bir qismi yazıb ki, şübhəsiz, Çingiz Mustafayev bu müsabiqənin lideri idi və ən yüksək yerə layiq idi. Biz bunu gördük və eşitdik. Düzdür, onlar Çingizin adını yazmırlar, Azərbaycan təmsilçisi deyirlər. Bilirsiniz, Avropa tamaşaçısının münasibəti bir qədər fərqlidir. Burada diqqətçəkən bir məqam vardı. Fikir verdinizsə, müsabiqənin münsiflər heyətinin səsverməsində Çingiz ilk beşlikdə idi. Ancaq dinləyicilərin səsverməsindən sonra o, iki pillə aşağı endi. Yəni biz bunun əksini gözləyirdik ki, dinləyicilərin səsverməsi onu yüksəyə qaldıracaq və Çingiz birinci yeri qazanacaq. Amma, nədənsə, belə olmadı. Bu da məni hədsiz dərəcədə təəccübləndirdi. Bu olduqca qəribə bir hadisədir. "Avroviziya" müsabiqəsi belədir ki, onun nəticələrini əvvəlcədən proqnozlaşdırmaq çox çətin olur. Ancaq bir məsələni səmimiyyətlə demək istəyirəm ki, Çingizin timsalında Azərbaycanın "Avroviziya"dakı budəfəki iştirakı daha yüksək səviyyədə oldu. Mən həmişə "Avroviziya"dakı ilk təmsilçimiz olan Samirlə Elnurun da çıxışlarını yüksək qiymətləndirirəm. Bu çıxışa xüsusi əhəmiyyət verməyimin səbəbi odur ki, Samirlə Elnurun çıxışı ilk idi və həm də onların ifa etdiyi mahnını Azərbaycan bəstəkarı yazmışdı. Çox arzu edərdim ki, gələcəkdə Azərbaycan bəstəkarları bu müsabiqə iştirakçıları üçün mahnılar yazsınlar. Çünki Azərbaycanın mahnı ənənələri çox zəngindir. İstəyim odur ki, gələcəkdə Azərbaycan bəstəkarları da bu prosesə qoşulsunlar, onlar bu sahədə öz sözlərini deyə bilərlər. Amma yenə də Çingizin ifası, səsi, yaratdığı obraz olduqca yüksək sənətkarlıq, peşəkarlıq nümunəsi idi. Bunu sənətkarlıq baxımından da çox yüksək dəyərləndirirəm. Bu gün ola bilsin ki, yarışmanın qalibi olan Niderland nümayəndəsi və digərləri gündəmdədirlər. Şübhəsiz ki, Çingiz Mustafayev pop musiqisində təsadüfi adam deyil, o artıq öz sözünü deyib, onu sevənlər də, tanıyanlar da var. Baltikyanı respublikalarda Çingiz Mustafayevi çox yaxşı tanıyırlar, çünki "Yeni dalğa"da iştirak edib. O bu sənətdə qalacaq, karyerasını davam etdirəcək. O tamamilə püxtələşmiş, özəl keyfiyyətləri, səs tembri ilə seçilən, səhnədə obraz yaratmağa qadir olan xarizmatik, cazibədar bir ifaçıdır. Mənə elə gəlir ki, onun səs-sorağı bundan sonra da nüfuzlu yarışmalardan gələcək. O ki, qaldı münsiflərin səsverməsinə, ola bilsin, Çingizə yüksək bal verənlər az oldu. Ancaq mən burada ilk dəfə belə bir hal müşahidə etdim. Ona verilən səsin miqdarı az olsa da, demək olar ki, bütün ölkələrin münsiflər heyətinin üzvləri ona xal verdilər, yəni xal verməyən münsif üzvü qalmadı. Əvvəllər belə bir hadisənin şahidi olmamışam. Səsverənlər sırasında Fransa da, İtaliya da, İspaniya da, Norçeç də var idi. "Avroviziya"da təmsil olunan və Avropada pop musiqi sahəsində dəbi diktə edən bütün peşəkar musiqiçilər Çingizi diqqətdən kənarda qoymadılar".

*"Bukmeykerlər Niderland təmsilçisinin qalib olacağını proqnozlaşdırırdı və belə də oldu"*

Builki müsabiqədə nə kimi dəyişikliklərin baş verdiyinə gəlincə, Z.Dadaşzadə qeyd etdi ki, bu dəfə elə də böyük dəyişikliklər müşahidə edilməyib. Z.Dadaşzadənin sözlərinə görə, müsabiqənin nəticələri ilə bağlı bukmeykerlərin budəfəki proqnozları özünü doğruldub. "Bukmeykerlərin proqnozları mənə qəribə gəldi. Onlar sanki tamaşaçılara, dinləyicilərə sirayət etmək istəyirlər. Belə olub ki, dəfələrlə bukmeykerlərin dedikləri ilə nəticələr üst-üstə düşməyib. Ancaq bu dəfə belə olmadı. Finalın sonunda İsveç və Niderlandın nümayəndələri mübarizə aparırdılar. Bukmeykerlər Niderland təmsilçisinin qalib olacağını proqnozlaşdırırdılar və belə də oldu, birinci yeri Niderland ifaçısı tutdu. Hərçənd, onlar eyni səviyyədə idilər və bəlkə də İsveçin nümayəndəsi daha maraqlı ifa və performans sərgilədi. Bu mənim üçün bir sirr olaraq qalır. Əvvəlcədən belə bir proqnozun verilməsi və rəyin formalaşdırılması adamda müxtəlif suallar yaradır. Əvvəlki dövrlərdən fərqli olaraq builki yarışmada siyasi çalarlar özünü elə də göstərmədi. Biz bunu görmüşük ki, hər hansı bir ölkəyə dəstək olmaq üçün bəzən onların təmsilçilərini birinci pilləyə çıxarıblar. Ancaq burada belə şey yox idi. Birinci yarımfinaldan sonra düşündüm ki, Çingiz qalibdir. İkinci yarımfinalda 18-ci çıxış edirdi. Hətta biz bu məsələni həmkarlarımla da müzakirə etdik. Düşündüm ki, o, birinciliyə layiqdir. 7-ci yer Çingizə yaraşmır. Onun ifası, performansı, yaratdığı obraz həqiqətən də o qədər fərqli, özəl, sənətkarlıq baxımından kamil idi ki, Çingizin 7-ci yeri tutması məni təəccübləndirir. Ancaq sevindirici hal odur ki, Çingizin ifası ilə bağlı bir dənə də olsun mənfi rəy yoxdur, hamı ona böyük diqqət yetirmişdi, onun favoritlər sırasında olduğunu qeyd edirdi. Sadəcə olaraq, bu dinləyici səsverməsinin nəticəsi məni qane etmədi. Ancaq münsiflərin səsverməsi normal idi. Çingizin nəticələri ilə bağlı məndə bəzi suallar yarandı. Çox əmin idim ki, Çingiz, ən azından, 3-də olmalı idi. Belarusdan xal alınmadı, bu haqda fikir söyləməkdə çətinlik çəkirəm. Ancaq görürəm ki, sosial şəbəkələrdə Belarus tamaşaçıları, dinləyiciləri hamısı "Çingiz bizim favoritimizdir" deyirlər. Belarus və Azərbaycan arasında çox sıx əlaqələr var. Amma onların bizim təmsilçimizə səs verməməsi məni təəccübləndirdi. Hesab edirəm ki, Çingiz Mustafayevin tutduğu 7-ci yerlə onun göstərdiyi performans, yaratdığı obraz, təqdim etdiyi ifa qətiyyən uzlaşmır. Çünki o, əsl sənət nümayiş etdirdi. Çingizə münasibətdə münsiflər normal mövqe tutdular, ancaq tamaşaçı, dinləyici səsvermələrinin nəticələri də məni təəccübləndirir" - deyə Z.Dadaşzadə qeyd etdi.

***İradə SARIYEVA***

# Ermənistanın Azərbaycana təcavüzü nəticəsində itkin düşmüş soydaşlarımız unudulmayacaq...

**1988-ci ildən başlayaraq Ermənistanın təcavüzünə qarşı döyüşlərdə itkin düşmüş şəxslərlə bağlı Dövlət Komissiyası və Respublika Xatirə Kitabının birgə böyük həcmli və tarixi əhəmiyyətli işinin bir hissəsi yenicə yekunlaşıb. Minlərlə Azərbaycan vətəndaşının itkin düşdüyü ana qədərki həyat yolunu özündə əks etdirən dörd cildlik xüsusi buraxılışın ilk cildi artıq çapdan çıxıb. İlk cilddə 922 nəfər gənc, yaşlı qadın, kişi və uşaqlardan ibarət Azərbaycan vətəndaşı barədə məlumatlar yer alıb. Geniş oxucu marağını nəzərə alaraq, həmin nakam soydaşlarımızın bir neçəsi barədə məlumatı gündəlik olaraq yenidən sıra ilə təqdim etməyi qərara aldıq. Daha ətraflı məlumatı Xatirə Kitabının www.xatirekitabi.az saytından əldə edə bilərsiniz. Beləliklə, sözügedən nəşrdə yer alan itkin soydaşlarımızla bağlı məlumatları diqqətinizə çatdırırıq:**

**(Əvvəli ötən saylarımızda)**

**BABAYEV HƏMZƏT MİRZƏ oğlu**



15 yanvar 1961-ci ildə Azərbaycan Respublikası Qax rayonunun Sarıbaş kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Zaqatala rayon mərkəzində yaşamışdır. Zaqatala RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev Həmzət Mirzə oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 14 fevral 1994-cü ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev Həmzət Mirzə oğlu 14 fevral 1994-cü il tarixində Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı ayaqlarını don vurduğuna görə döyüş bölgəsini tərk edə bilməyib ərazidə qalmış və naməlum şəraitdə itkin düşmüşdür.

Babayev Həmzət Mirzə oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV İLHAM XALIQ oğlu**

10 iyul 1964-cü ildə Azərbaycan Respublikasının Neftçala rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Neftçala rayonunun Xıllı qəsəbəsində yaşamışdır. Neftçala RHK tərəfindən hərbi xidmətə çağırılmışdır.



Hərbçi. Babayev İlham Xalıq oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları zamanı 4 may 1994-cü ildə Tərtər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev İlham Xalıq oğlu 4 may 1994-cü il tarixində Tərtər rayonunun 3-cü sovxoz adlanan ərazisində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı ayağından yaralanaraq erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürülmüşdür.

Babayev İlham Xalıq oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**BABAYEV İLKİN NƏSİB oğlu**



15 iyul 1980-ci ildə Azərbaycan Respublikasının Qax rayonunda doğulmuşdur. Hərbi xidmətə qədər Qax rayon mərkəzində yaşamışdır. Qax RHK tərəfindən hərbi xidmətə çağırılmışdır. Hərbçi. Babayev İlkin Nəsib oğlu Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkibində həqiqi hərbi xidmət keçdiyi zaman döyüş növbəsində olarkən 30 sentyabr 2002-ci ildə Kəlbəcər rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev İlkin Nəsib oğlu 30 sentyabr 2002-ci il tarixində Kəlbəcər rayonu ərazisində Murovdağ istiqamətində erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı naməlum şəraitdə itkin düşmüşdür.

Babayev İlkin Nəsib oğlunun sonrakı taleyi barədə məlumat yoxdur

**BABAYEV İSLAM ƏHMƏDAĞA oğlu**

9 sentyabr 1967-ci ildə Azərbaycan Respublikası Ağsu rayonunun Musabəyli kəndində doğulmuşdur. Hərbi xidmətə qədər Bakı şəhərinin Binəqədi rayonunda yaşamışdır. Nəsimi RPŞ-nin əməkdaşı. Hərbçi. Babayev İslam Əhmədağa oğlu Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda Ermənistan Silahlı Qüvvələri və onların dəstəklədiyi separatçı hərbi birləşmələrə qarşı həyata keçirilən döyüş əməliyyatları



zamanı 8 may 1992-ci ildə Şuşa rayonu ərazisində itkin düşmüşdür.

Dövlət Komissiyasının apardığı araşdırma nəticəsində müəyyən edilmişdir ki, Babayev İslam Əhmədağa oğlu 8 may 1992-ci il tarixində Şuşa rayonunun Bala Kirs dağında yerləşən postda erməni silahlı birləşmələrinə qarşı həyata keçirilən hərbi əməliyyatlar zamanı erməni terrorçu-quldur dəstələri tərəfindən əsir götürülmüşdür.

Babayev İslam Əhmədağa oğlunun sonrakı taleyi barədə məlumat yoxdur.

**(Ardı növbəti sayımızda)**

# 230 minə də avtomobil nömrəsi olar?!

**Avtomobilə aid dövlət nömrə nişanının elan saytlarında satılmasına sosial şəbəkədə dəfələrlə rast gəlmişik. Müxtəlif seriyalı və "zerkalnıy" avtomobil nömrələri sosial şəbəkə üzərindən satışa çıxarılır.**

Bəllidir ki, avtomobil nömrələrinin internet üzərindən alışı və satışı qanunvericiliklə qadağandır. Bu əməli qanunsuz yolla gəlir əldə etmək istəyənlər edir.

Qanunsuz yolla gəlir əldə etmək istəyənlərin satışa çıxardığı avtomobil nömrələrinin qiyməti, nə az, nə çox, 200 min AZN-dən başlayır. Sosial şəbəkələrdə avtomobil nömrələrinin satışı barədə David Xamelenko adlı şəxs elan yerləşdirib. Elanda qeyd olunur ki, aşağıdakı avtomobil nömrələri satılır. Ən bahalı nömrə 99 TT 999-dur - 230 min manat. Satışda olan digər nömrələrin siyahısı isə belədir:

99 LL 999 - 200 min AZN, 99 VV 999 - 200 min AZN, 99 UU 999 - 200 min AZN.

Bu siyahının nə dərəcədə real olduğunu demək çətin olsa da, bəlli olan budur ki, Azərbaycanda nömrə alveri geniş yayılıb.

Ekspertlər isə bildirirlər ki, avtomobil nömrələrinin internet üzərindən satışa çıxarılması qanunsuzdur. Bunu edən şəxs varsa, o, ciddi qanun pozuntusuna yol verir. "Yol hərəkəti haqqında" Qanunun 27-ci və 29-cu maddələrində də göstərilir ki, avtomobil üzərindəki nömrə ilə satıla bilər. Nömrəni ayrıca satmaq isə qanunla qadağandır.

**Ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün qanunsuz yolla avtomobil nömrələri satılır:** "Təəssüf ki, işbazlar qanunvericilikdə olan bəzi boşluqlardan istifadə edirlər. Ancaq bu yolverilməzdir. Avtomobil nömrələrinin satılması Dövlət Yol Polisinin səlahiyyətinə aid olunan məsələdir. Avtomobil nömrəsi üçün müəyyən edilən rüsum isə hərflərin və nömrələrin düzülüşünə uyğun olaraq təyin olunur. Ayrı-ayrı şəxslərin qanunsuz şəkildə nömrə satışı ilə məşğul olması yolverilməzdir".

## *Azər Allahverənov: "İnternet üzərindən açıq şəkildə avtomobil nömrələrini satışa çıxaran şəxslə bağlı sərt tədbir görülməlidir"*




Həmsöhbətimizin sözlərinə görə, internet üzərindən avtomobil nömrələrinin satılması düzgün deyil. Ekspert hesab edir ki, internet üzərindən açıq şəkildə avtomobil nömrələrini satışa çıxaran şəxslə bağlı sərt tədbir görülməlidir.

***Günel CƏLİLOVA***

**Qobustan açıq səma altında füsunkar bir qoruqdur. Bu qoruqda bircə dəfə olanlar buradan özləri ilə bir ömrə bəs edəcək qədər gözəl xatirələr aparırlar. Hər daşı, qayası, çınqılı belə özündə böyük tarix yaşadır, qədim Azərbaycan insanının tarixini. Minilliklər boyu mövcud olan Qobustan abidəsi Azərbaycanın qədim insan yaşayış məskənlərinin biri olduğunu göstərir.**

# Mədəniyyət Nazirliyinin jurnalistlər üçün təşkil etdiyi pressturdan kiçik qeydlər...




Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18 may - Beynəlxalq Muzeylər Günü münasibətilə bir sıra media qurumlarının əməkdaşları Qobustan Milli Tarix-Bədii Qoruğunda, Qara Qarayevin ev-muzeyində və Milli İncəsənət Muzeyində oldular.

Səfər zamanı media təmsilçiləri Qobustan Milli Tarix-Bədii Qoruğunda olarkən burada virtual Qobustan muzeyi ilə yaxından tanış oldular. Qədim dövrlərə aid olan eksponatlar, müqəvvalar, eləcə də digər nümunələr səfər iştirakçılarının marağına səbəb oldu. Biz orada olarkən maraqlı mənzərələrlə qarşılaşdıq, məktəblilərin və xarici turistlərin muzeyə kütləvi axın etdiyinin şahidi olduq. Qoruğun direktoru Vüqar İsayev bildirdi ki, hələ saat 12-ni yeni keçməsinə baxmayaraq, qoruğa 1200 nəfərdən artıq məktəbli gəlib.

Mədəniyyət Nazirliyinin əməkdaşı Türkan Cəfərova bildirdi ki, hər il mayın 18-i dünyanın 150-dən çox ölkəsində, eləcə də Azərbaycanda Muzeylər Günü kimi qeyd olunur. Bu günlə əlaqədar ölkəmizin bütün muzey və qoruqlarında "Açıq qapı" günü elan olunub. Mediaturun təşkilində məqsədin insanların muzeylərə cəlb olunması və bu kimi məkanların tarixi-mədəni önəmini diqqətə çatdırmaqdır.

Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət edən ispaniyalı turist Antonio Qarsiya bildirdi ki, muzeylərlə tanış olmaq insanların biliklərinin artmasına kömək edir. Bu, eyni zamanda, çox əyləncəli bir işdir. Turist Qobustan qayaüstü rəsmlərini İspaniyadakı Altamira qaya rəsmləri ilə müqayisə edərək, hər iki regionun qədim olduğunu vurğuladı.

Qobustan qoruğu bizdə böyük təəssüratlar yaratdı. Muzeyin əməkdaşı Arzu Umiyeva bizə Qobustanın kəşfi, burada kəşf edilən ayrı-ayrı mağaraların, daş abidələrin tarixi haqqında danışdı. Presstur iştirakçıları Qobustandan sonra böyük bəstəkarımız Qara Qarayevin ev-muzeyini ziyarət etdilər. Biz orada olarkən məlumat verdilər ki, Qara Qarayevin ev muzeyi 2018-ci il oktyabrın 1-dən fəaliyyət göstərməyə başlayıb. Muzeydə 3 minə yaxın eksponatın nümayiş olunduğunu deyən muzey əməkdaşlarının sözlərinə görə, eksponatlar sırasında Sosialist Əməyi Qəhrəmanı, görkəmli bəstəkarın əlyazmaları, şəkilləri, ona hədiyyə olunan kitablar və digər əşyalar var.



Presstur çərçivəsində Milli İncəsənət Muzeyində də olduq. Bizim ziyarət etdiyimiz bina təmir və bərpadan sonra seyrçilərin ixtiyarına verilib. Ölkəmizin ən zəngin muzeylərindən olan Milli İncəsənət Muzeyinin kolleksiyasının yaranması ötən əsrin 20-ci illərinə təsadüf edir. Bu muzeyə o vaxtlar yerli neft milyonçularının müsadirə olunmuş sənət əsərləri daxil idi. Muzey 1936-cı ildən müstəqil bir muzeyə çevrilib, 2010-cu ildən isə milli status alıb. Bildirildi ki, bina alman memarı tərəfindən tikilib. Muzeyin kolleksiyasına 18 mindən çox eksponat daxil olsa da, onlardan yalnız 3 mini nümayiş olunur, qalanları isə fondda qorunub saxlanır.

Milli İncəsənət Muzeyində həm Azərbaycan, həm də dünya rəssamlarının dünyaşöhrətli əsərləri qorunub saxlanır. Biz orada olarkən bildirdilər ki, bu bina muzey olmamışdan əvvəl Azərbaycana rəhbərlik etmiş Nəriman Nərimanovun və Mircəfər Bağırovun yaşadığı məkan olub. Burada onların şəxsi kabinetlərinin olduğunu deyən muzey əməkdaşlarının qeyd etdiyinə görə muzey yenidən bərpa edilərkən burada hər bir xırda detal nəzərə alınıb.

**Mədəniyyət Nazirliyinin təşkil etdiyi bir neçə saatlıq pressturdan hər birimiz maraqlı məlumatlarla, xoş hisslərlə ayrıldıq.**

*İradə SARIYEVA*

**15 aprel - 4 may 2019-cu il tarixlərində Türkiyədə böyük nüfuza sahib olan Kayseri 14-cü Beynəlxalq Məktəblərarası Teatr Festivalında Azərbaycan "Aləmin nəfəsi: Nəsimi" tamaşası ilə təmsil olunub. Festivalda Azərbaycanı Türkiyənin Azərbaycandakı Səfirliyinin Mədəniyyət və təbliğat müşavirliyinin dəstəyilə Azərbaycan Milli Konservatoriyası (AMK) nəzdində olan İncəsənət Gimnaziyasının şagirdləri təmsil ediblər.**

# Şagirdlərimiz Kayseri 14-cü Beynəlxalq Məktəblərarası Teatr Festivalında 3 mükafata layiq görülüblər



Onların ifasında nümayiş olunan tamaşa böyük rəğbətlə qarşılanıb.

Mayın 18-də isə Bakı Kitab Mərkəzində İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Aləmin nəfəsi: Nəsimi" tamaşasının təqdimatı və aktyorların mükafatlandırılması baş tutub. Festivalın yekun nəticəsi olaraq, layihənin Azərbaycan üzrə rəhbəri, tərtibatçısı və dekoratoru, rəssam Günay Mehdizadənin rəhbərliyi altında təqdim olunan "Aləmin nəfəsi: Nəsimi" tamaşası Kayseridə 3 nominasiya üzrə - "Ən yaxşı səhnə dekorasiyası", "Ən yaxşı rejissor işi" və "Ən yaxşı aktyor oyunu"na görə mükafatlara layiq görülüb.

Mükafatlandırma gecəsində qalib olan tamaşa bir daha izləyicilərə təqdim olunub. Gecədə çıxış edən Türkiyənin Azərbaycandakı Səfirliyinin Mədəniyyət və təbliğat məsələləri üzrə müşaviri İrfan Çiftçi AMK tərkibində İncəsənət Gimnaziyasının şagirdlərinə uğurlar arzulayıb: "Beynəlxalq festivallar məktəblilərin özlərini realizə etmələri üçün ən ideal bir vasitədir. Kayseridə keçirilən 14-cü Beynəlxalq Məktəblərarası Teatr Festivalında iştirak edən şagirdlər, sözün əsl mənasında, möhtəşəm bir performans sərgilədilər. Məktəblilərin ifasında Nəsiminin fəlsəfəsinin qədim türk, islam fəlsəfəsindən necə təzahür etdiyini görmüş olduq".

BKM-nin direktoru Günel Rzayeva çıxışında Nəsimi ilinin elan olunmasının önəmliliyindən bəhs edib: "Nəsimi dünya klassikasının ən böyük korifeylərindəndir. Sevinirik ki, burada da silsilə tədbirlər keçirilir. Bu gün də bu tədbir bizi çox sevindirdi. Gənclər bu dərəcədə Nəsiminin yaradıcılığına bələddirlər, onu sevərək oxuyurlar. Biz belə tədbirləri ancaq dəstəkləyə bilərik. Şagirdlərin ifasında nümayiş olunan "Aləmin nəfəsi: Nəsimi" tamaşasını çox bəyəndim, yaxşı mənada uşaqların peşəkarlığı məni heyrətləndirdi. Layihə rəhbərinə və gənclərə uğurlar arzulayıram".

Rəssam Günay Mehdizadə çıxışında layihənin uğur qazanmasından məmnunluğunu bildirdi: "Uşaqlar bizim gələcəyimizdir. Onların belə mötəbər bir festivalda məhz Azərbaycanın dahi sənətkarını canlandırması, onu beynəlxalq aləmdə tanıtması Azərbaycan mədəniyyəti üçün bir uğur idi. Nə xoş bizə ki, qarşımıza qoyduğumuz bu amal uğrunda qabiliyyətlərimiz daha çoxdur. Bundan məmnunluq hissi duyuram və qabiliyyətimizi təkcə bizim deyil, Azərbaycan gənclərinin uğuru kimi qiymətləndirirəm".

**Sonda nəzərdə tutulan mükafatlar səfirliyin müşaviri tərəfindən iştirakçılara təqdim edilib.**

*Xəbər xidməti*

№ 90 (3988) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

21 MAY 2019-cu il

www.baki-xeber.com

## "Nar" gənclər üçün iş imkanları təklif etməkdə davam edir

**Gənclərin peşəkar inkişafına hər zaman xüsusi diqqət ayıran "Nar" Azərbaycan Dillər Universitetinin Bakı Amerika Mərkəzi və "ABŞ Təhsilli Azərbaycan Məzunları" İctimai Birliyinin birgə təşəbbüsü ilə mayın 18-də keçirilən "Karyera Günü və İş Yarmarkası"nda iştirak edib.**

Tədbir boyu ölkənin nüfuzlu şirkətlərinin nümayəndələri ilə bilavasitə ünsiyyət qurmaq imkanı əldə edən 200-dən çox tələbə və məzun, eyni zamanda, "Azerfon" MMC-də ("Nar" ticarət nişanı) mövcud vakant iş yerləri haqqında məlumat alıblar. "Nar" satış, xüsusi müştərilər, biznesin təhlili üzrə mütəxəssis vakant vəzifələrinə sənəd qəbulu təşkil edib. Bundan başqa, mütəxəssislər tərəfindən aparılan təqdimatlar zamanı gənclərə böyük şirkətlərdə işləməyin üstünlükləri, əmək bazarının real və tələbkar yanları, karyera planlaşdırılması, düzgün rezyume hazırlanması və müsahibə mərhələsinə hazırlıqla bağlı faydalı məlumatlar ötürülüb.

Qeyd edək ki, gənclərə dəstək və iş imkanlarına çıxışın təmin edilməsi "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasında yer alan istiqamətlərdən biridir. "Nar"ın davamlı olaraq həyata keçirdiyi KSM layihələri haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## Elan

Şəki rayonu, Baş Göynük kənd sakini Məmmədov Adil Hacıxan oğlunun adına verilmiş AN: 053124 saylı torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

"Yeni Şəki Tikinti" MMC-yə məxsus möhür və ştamp itdiyindən etibarsız hesab edilir.

Qasımova İrlanə İsmayıl qızının adına, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Vahid küçəsi, ev N12, mənzil 32 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Seyidov Mirsamir Orxan oğluna Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İmamverdiyev Nicat Zöhrab oğlunun adına, Bakı şəhəri, Yasamal rayonu, D.Bünyadzadə N12, ev 232 ünvanının "SAS" MTK tərəfindən verilmiş müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Hüseynov Fərid Məhəbbət oğluna Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Almasov Əziz İsabala oğluna Qərbi Kaspi Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Həsənzadə Lalə Kərim qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əzizov Rəhman Sübhan oğlua Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



## Alimlər qlobal istiləşməyə davamlı olan mərcan növü aşkar ediblər

**Havay Dəniz Biologiyası İnstitutunun alimləri əlverişsiz şəraitə davamlı olan və sürətlə bərpa olunan mərcan növü aşkar ediblər.**

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, London Kral Cəmiyyətinin "Proceedings of the Royal" jurnalında dərc olunmuş tədqiqatda belə deyilir. Mərcan rifləri insan fəaliyyətinin müxtəlif nəticələrindən, qlobal istiləşmədən və suyun turşulaşmasından zərər çəkir. Mərcanların təqribən üçdəbir hissəsi artıq məhv olub. Onların sayı durmadan azalır. İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupunun məlumatına görə, cəmi 1,5 dərəcə istiləşmə Yer kürəsində mərcan riflərinin 70-90 faizinin yoxa çıxmasına gətirib çıxaracaq. Havay Dəniz Biologiyası İnstitutunun apardığı tədqiqatın baş müəllifi Kristofer Jüri əmindir ki, ən bədbin ssenarinin - mərcan riflərinin tamamilə yoxa çıxmasının qarşısını hələ də almaq olar. O deyib: "Təəssüflə etiraf etməliyəm ki, riflərlə bağlı vəziyyət sonrakı 20-30 il ərzində daha da pisləşəcək. Lakin bu o demək deyildir ki, işlərin belə gedişinin qarşısını almaq olmaz". Tədqiqatçılar Havay adalarındakı Kaneoxe körfəzində 1930-1970-ci illərdə, demək olar, tamamilə məhv edilmiş mərcan riflərinə diqqət yetiriblər. Urbanizasiya, dibdərinləşdirmə işləri, sahilyanı rayonların inkişafı və çirkab sularının dənizə axıdılması nəticəsində körfəzdə mərcan örtüyünün sahəsi 95 faiz azalıb. 1970-ci illərin sonunda kanalizasiya sularının axıdılmasının qarşısı alınıb. Suyun çox isti və turş olmasına baxmayaraq, mərcanlar sürətlə çoxalmağa başlayıb. Körfəzdə adi mərcanların həyatı üçün faktiki olaraq yararsız şərait yaransa da, salamat qalmış supermərcanlar şəraitə uyğunlaşaraq çoxalmağa başlayıb. Tədqiqatçılar müəyyən ediblər ki, mərcanın bu növü məskunlaşdığı mühitə o dərəcədə öyrəşib ki, daha sərin və turşulaşma səviyyəsi aşağı olan sularda özünü pis hiss edir. Alimin fikrincə, supermərcanın bütün dünyada itirilmiş rifləri bərpa edə biləcəyini demək hələlik tezdir. Onun fikrincə, hətta Kaneoxe körfəzindəki ən davamlı mərcanlar belə Yer kürəsində həyat şəraitinin getdikcə pisləşməsinə davam gətirməyə bilər. Jüri deyib: "Əmma əgər zəruri addımlar indi atsaq, onda biz, uşaqlarımız və nəvələrimiz mərcan riflərinin bərpa olunmasının şahidi ola bilərik".

## Taxtabitilərin Yer kürəsində insandan xeyli əvvəl məskunlaşdıqları iddia edildi

**Taxtabitilərin artmasının çox qəribə üsullarını tədqiq edən alimlər belə gözlənilməz nəticəyə gəliblər ki, bu həşəratlar Yer kürəsində insandan xeyli əvvəl məskunlaşıblar.**

"AZƏRTAC" bildirir ki, taxtabitilərin 30 növündən götürülmüş DNT nümunələri onların ən azı 115 milyon ildir mövcud olmasını göstərib. Bu qaniçən parazitlər hətta özlərinin əzəli heyvan sahiblərindən - yarasalardan 50 milyon il əvvəl əmələ gəliblər. Bu cür gözlənilməz kəşflər "Müasir biologiya" jurnalında dərc edilib.





**Qoç** - Günün ilk yarısından başlayaraq maraqlarınızın təminatına çalışın. Emosional davranmayın, hisslərinizə hakim olun. Ailə üzvlərinizdən və ya qohumlarınızdan birinin qayğıya ehtiyacı var.



**Buğa** - Yaxın gələcəklə bağlı planlarda mütləq dəyişikliklər olmalıdır. Vəziyyətdəki yenilənmələri nəzərə alın. Süst və apatik olmayın. Problemlərin həllində alternativ variantlara xüsusi fikir verin.



**Əkizlər** - Günün ilk yarısında harasa tələsəndə fikirlərinizin ümumi axarının pozulmasına imkan verməyin. Vurnuxmalar sizi təbdən çıxarmasın. Yaxın gələcəklə bağlı perspektiv planların hazırlanmasına başlayın.



**Xərçəng** - İslahatlara və yeniliklərə başlamaq üçün əlverişli zamandır. Fəaliyyətinizdə stabilliyə nail olun. Cari problemlərin kəskinliyi azalacaq. Təsadüfi anlaşılmazlıqların çözümü var.



**Şir** - Ballasta, mənasız yükə çevrilən nə varsa, ondan qurtulun. Köhnəlmiş münasibətlər, önəmini itirmiş əlaqələr, dünyaya və hadisələrə hələ də idealist baxan insanlardan qurtulun. Məqsədə doğru qətiyyətlə irəliləyin.



**Qız** - Münasibətlərinizdəki gərgin məqamlardan qurtulmaq üçün tərəf-müqabil seçimində diqqətli olun. Təsadüfi işbirliyi və ya aktuallığını itirmiş əməkdaşlıqla bağlı qəti qərar vermək zamanıdır.



**Tərəzi** - Aldığınız məlumatlardan istifadə edərək fəaliyyətinizi intensivləşdirin. Yarımçıq işləri başa vurun. Dövr aktivlik tələb edir. Təxirə saldığınız işlərin yaxşı perspektivləri var. Sizə yardım etmək istəyən insanın təklifindən imtina etməyin.



**Əqrəb** - Günün ilk yarısındakı ab-hava işlərinizə müsbət təsir edəcək. Daxili durumunuz stabilləşsin. Təşəxxüslü və eqoist olmayın. Şəxsi münasibətlərdə qarşı tərəfin maraqlarını mütləq nəzərə alın.



**Oxatan** - Günün ilk yarısında passiv olmayın. Aktual olaylarla bağlı neytral mövqe tutmayın. İşlərdəki təbii fasilələr diqqətinizi önəmli məsələlərə yönəltməyə imkan verir. Yaşam arealında yeniliklərə başlaya bilərsiniz.



**Oğlaq** - Ətrafınızdakı vurnuxma və tələskənliyə uymayın, düşünülməmiş qərarlar verməyin. Qəribə məlumatlar və təsadüfi görüşlər sizi məqsədə aparan yoldan sapdırmamalıdır.



**Dolça** - Maddi durumunuza və ümumiyyətlə, imkanlarınızın səviyyəsinə bir daha nəzər salın. Yaşam arealında təftişə başlamaq olar. Gərəksiz əşyaları ehtiyacı olan insana bağışlayın.



**Balıqlar** - Adi gündür. Rahat, sakit şəraitdə çalışa bilərsiniz. Ünsiyyətdə heç bir gərginlik olmayacaq. Situasiyaya kəskin müdaxilə etməyin. Fəaliyyət planlarınız barədə yaxın ətrafınızdakı insanlara geniş, müfəssəl məlumat verməyə heç bir ehtiyac yoxdur.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Diş qıcamağın səbəbi...

**Estetik diş həkimi Efe Kaya diş qıcamağın bütün dişlərə zərər verdiyini açıqlayıb. O, xüsusən də yuxu zamanı bu problemin artığını qeyd edib.**

"Yenicag.az" xəbər verir ki, diş qıcamağın əsas səbəbi şüuraltımızda baş verən problemlərlə əlaqədardır. Vücudumuzun əzələlərdən sümüklərə, sinirlərdən dişlərə qədər bir-birinə hər saniyə xəbər göndərən və əzələdən bağlı bir mexanizm olduğunu vurğulayan doktor Efe Kaya "Dişlər sümüklərin içində olur və dişləri sümüyə bağlayan liflərin ətrafında reseptorlar var. İnsan yeməyi ağzına aldığı zaman bu liflərin ətrafındakı hərəkətverici qüvvələr çalışmağa başlayır. Yemək yeməyin ilk siqnalı alındığında beyin bunu dişlərin üzərində sabitləyir. Buna görə də şüurlu və şüursuz olaraq dişlər bir- birinə sıxıldığında bütün mexanizmə zərər verir", - deyə bildirib. Həmçinin, həkim diş qıcamağın ən çox yuxu zamanı baş verdiyini söyləyərək, bunun əsas səbəbinin şüuraltı ilə bağlı olduğunu açıqlayıb. Onun sözlərinə görə, gün ərzində baş verən hadisələr, şüuraltı yaşanan stress, həyəcan, qorxu, əsəb və s. kimi hallar yuxu zamanı hərəkətə keçərək diş qıcamağa səbəb olur. Nəticədə, yanaqlardakı və gicgah sümüklərindəki şişkinlik ağrıya yol açaraq, ağız boşluğunda ciddi fəsadlar yaradır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.